# GÜRCÜSTAN

SAYI 03-04 (13.373)
CÜMƏ 17 YANVAR 2025-ci İL

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივი-პოლიტიკური კვირეული გაზეთი


E-mail: Gurcustan_1921@mail.ru Tel/ტელ: +995 32 222 04 76 E-mail: gurcustan2023@gmail.com


## İ.KOBAXİDZE: "TƏKRAR SEÇKİLƏRDƏN SÖHBƏT GEDƏ BİLMƏZ, GÜRCÜ XALQI ÖZ İRADƏSİNİ AÇIQ ŞƏKİLDƏ İFADƏ EDİB"



*"Gürcü xalqının öz iradəsini çox aydın ifadə etdiyi bir şəraitdə təkrar seçkilərdən söhbət gedə bilməz"*. Bu sözləri Baş nazir İrakli Kobaxidze jurnalistlərə müsahibəsində bildirib. Hökumət başçısının qiymətləndirməsinə görə, *"Seçkilərin tamamilə düzgün keçirildiyi və gürcü xalqının öz iradəsini açıq şəkildə ifadə etdiyi halda, hansı təkrar seçkilərdən söhbət gedir? Biz bu seçkidə çox böyük fərqlə qalib gəldik, bizim nəticə ilə ikinci sırada olan partiyanın nəticəsi arasında təxminən beş dəfə fərq var. Ona görə də Avropa Birliyinin belə mövqeyi məni təəccübləndirmir. Təbii ki, gürcü xalqının öz iradəsini çox aydın ifadə etdiyi bir şəraitdə yenidən seçkilər keçirilməsindən söhbət gedə bilməz"*.

## GÜRCÜSTANDA DÖVLƏT BAYRAĞI GÜNÜ QEYD OLUNUB

***Yanvarın 14-də Gürcüstanda Dövlət Bayrağı günü qeyd olunur.*** Ölkədə Bayraq günü 2012-ci ildən etibarən rəsmi olaraq təntənəli şəkildə qeyd edilir. Gürcüstanın hazırki qırmızı rəngli müasir 5 xaçdan ibarət olan bayrağı 2004-cü il yanvarın 14-də parlament çoxluğu ilə Gürcüstanın Dövlət Bayrağı kimi təsdiq olunub və rəsmi şəkildə yanvarın 14-ü Dövlət Bayrağı Günü elan olunub. Gürcüstanın Dövlət Bayrağı 13-cü əsrə aid hesab edilir. Qeyd edilib ki, Gürcüstanın bayrağı öz qədimliyinə görə, Danimarkanın bayrağından sonra dünyada ikinci yerdədir. Bu gün vətəndaşlara ölkənin simvolu olan Gürcüstan bayrağını dövlətin bütün binalarından, pəncərələrdən, balkonlardan, öz evlərinin damlarından, hətta avtomobillərindən asmağa icazə verilib. Məlumat üçün bildirək ki, 1918-1921-ci illərdə mövcud olan Gürcüstan Demokratik Respublikasının bayrağı 1991-ci ildə Sovet İttifaqından müstəqillik əldə etmiş Gürcüstanın bayrağı statusunu davam etdirib. 2004-cu ildə isə ölkə bayrağının dəyişdirilməsinə qərar verilib.



## S. LAVROV: "ATƏT MÜŞAHİDƏÇİLƏRİ CİDDİ POZUNTU MÜŞAHİDƏ ETMƏYİBLƏR"



***"ATƏT müşahidəçiləri Gürcüstanda keçirilən seçkilər zamanı heç bir ciddi pozuntu müşahidə etməyiblər".***

Bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov mətbuat konfransında deyib. O bildirib ki, Qərb gürcü xalqının seçimini tanımaq istəmir: *"Görün gürcü xalqını necə məsxərəyə qoyurlar. Yeri gəlmişkən, bizi də seçkilərə müdaxilə etməkdə ittiham edirdilər. ATƏT müşahidəçiləri heç bir ciddi pozuntu müşahidə etməyiblər. Bu o deməkdir ki, hər şey düzgün, qanuni şəkildə edilib, amma bu, onların xoşuna gəlmir"*, - deyə Lavrov qeyd edib.

## HƏMAS VƏ İSRAİL ARASINDA ATƏŞKƏS RAZILAŞMASI OLUB

***Qətər HƏMAS-İsrail razılaşmasını təsdiqləyib.***

Bu barədə Qətərin Baş naziri Şeyx Məhəmməd bin Əbdül Rəhman Əl Tani bildirib. O, HƏMAS və İsrailin Qəzza zolağında atəşkəsin əldə olunması və girovların azad edilməsi ilə bağlı razılığa gəldiklərini bəyan edib.

Onun sözlərinə görə, Qəzza zolağında atəşkəs razılaşması yanvarın 19-dan qüvvəyə minəcək. Girovların azad edilməsi razılaşmanın birinci mərhələsi olacaq. HƏMAS-ın ilk mərhələdə 33 girovu azad edəcəyi gözlənilir.

Bundan əvvəl "Əl-Qahira Əl-İxbariya" telekanalı mənbələrə istinadən məlumat yayıb ki, Qəzza zolağında atəşkəs razılaşması əldə olunub.

Məlumata görə, razılaşma vasitəçilərin bir neçə saatlıq gərgin müzakirəsindən sonra bağlanıb.

## BAŞ NAZİR: "PARLAMENTİN İSTİNTAQ KOMİSSİYASI İLƏ ƏMƏKDAŞLIQ ETMƏYƏNLƏR CİNAYƏT MƏSULİYYƏTİ DAŞIYACAQ"

***"Əgər kimsə parlamentin istintaq komissiyası ilə əməkdaşlıq etməzsə, buna görə cinayət məsuliyyəti nəzərdə tutulur".***

Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze jurnalistlərə müsahibəsində bildirib.

*"Əgər kimsə parlamentin istintaq komissiyası ilə əməkdaşlıq etməzsə, buna görə cinayət məsuliyyəti nəzərdə tutulur. Buna görə də, siz özünüz proseslərin necə inkişaf edəcəyini dəyərləndirə bilərsiniz. Təbii ki, hər kəsin istintaqla əməkdaşlıq etməsi tələb olunur, əks halda onlara qarşı müvafiq tədbirlər görüləcək"*, - deyə İrakli Kobaxidze qeyd edib.

Məlumat üçün bildirək ki, "Gürcü Arzusu"nun icraçı katibi Mamuka Mdinaradze 9 yanvar tarixində keçirdiyi brifinqdə deyib:

*"Gürcüstan parlamentinin yaz sessiyasının ilk həftəsində 2003-2012-ci illərdə hakimiyyətdə olan "rejimin və rejimin siyasi məmurlarının" fəaliyyətini öyrənmək üçün istintaq komissiyası yaradılacaq"*.

## M. BOÇORİŞVİLİ: "AVROPA İTTİFAQI İLƏ MÖVCUD MÜNASİBƏT ARZUOLUNAN SƏVİYYƏDƏ DEYİL, AMMA ŞƏRTLƏR DƏYİŞƏ BİLƏR"



***Ölkəmizin xarici işlər naziri Maka Boçorişvili Aİ ilə münasibətlərin hazırkı vəziyyətindən danışarkən belə deyib.***

*"Ənənəvi tərəfdaşlarımız, müttəfiqlərimiz və dostlarımız Gürcüstanın daxili işlərinə müdaxilə və təzyiq baxımından bir nömrəli tənqidçiyə çevriliblər. Burada avropalı tərəfdaşlarımızı nəzərdə tuturam. Onların belə davranışlarının səbəbləri ayrıca müzakirə mövzusudur. Mən bunu regionumuzda, daha geniş mənada isə Avropada artan təhlükəsizlik problemləri ilə əlaqələndirirəm. Aydındır ki, müəyyən qorxular var və məhz bu qorxular Gürcüstanla bağlı bəzi tərəfdaş ölkələrin sərt reaksiyalarına səbəb olur.*

*Biz həmişə deyirik ki, əməkdaşlıq münasibətlərin normal şəkildə inkişaf etdiyi formatda davam etməlidir. Əgər hər hansı məsələ varsa, bu, uyğun formalarda ifadə olunmalıdır. Lakin bəzən elə açıqlamalar verilir ki, onlar olduqca təhqiramiz olur. Belə olan halda, masa arxasında ciddi müzakirələr aparmaq çətinləşir, amma biz bunu etməyə davam edirik"*,- deyə o qeyd edib.

## PROKURORLUQ SEÇKİ SAXTAKARLIĞI İLƏ BAĞLI DAVAM EDƏN İSTİNTAQ ÇƏRÇİVƏSİNDƏ HESABAT DƏRC EDİB



***Gürcüstan Prokurorluğu 2024-cü il parlament seçkilərinin mümkün saxtalaşdırılması ilə bağlı davam edən təhqiqat çərçivəsində aralıq hesabat təqdim edib.*** Agentlikdə keçirilən brifinqdə prokuror Beka Kvitsiani istintaq çərçivəsində aparılan istintaq və prosessual hərəkətlərdən danışıb. O bildirib ki, istintaq zamanı müəyyən edilib ki, seçkilər zamanı istifadə edilən yoxlama aparatları ilə məntəqələrdə eyni şəxsin müxtəlif yerdə səs verməsi mümkün deyil. Prokurorun məlumatına görə, seçkilərdə istifadə olunan mayenin də kimyəvi ekspertizası aparılıb və müəyyən edilib ki, maye dırnaq və dəriyə vurulduqda ultrabənövşəyi şüalar altında parıltısını ən azı 12 saat, hətta əllərin təkrar yuyulması halında belə qoruyub saxlayıb. İstintaq çərçivəsində hazırkı mərhələdə artıq səkkiz yüzə qədər istintaq və prosessual hərəkətlər həyata keçirilib. Onların arasında xarici ekspertlərin iştirakı ilə bir sıra istintaq eksperimentləri aparılıb və müvafiq ekspertizalar təyin edilib. Mövcud və əldə edilə bilən sübutların qorunması məqsədilə araşdırmanın ilkin mərhələsində MSK-nın seçiciləri yoxlama aparatlarının yerləşdiyi anbarlar möhürlənib. Adıçəkilən cihazlardan məlumat əldə etmək üçün müvafiq biliyə malik olan xarici mütəxəssislər, xüsusən də Amerika Birləşmiş Ştatlarında lisenziya almış "Smartmatik" şirkətinin nümayəndələri dəvət edilib. "Smartmatic" ekspertlərinin bilavasitə iştirakı ilə müvafiq məhkəmə qərarı əsasında hər bir məntəqədə səsvermədə iştirak etdiyini bəyan etmiş seçicilər haqqında məlumatların yerləşdirildiyi 2300-ə yaxın yoxlama aparatından yaddaş kartları çıxarılıb. Həmçinin hakimin hökmü əsasında yoxlama aparatlarından istintaq üçün maraqlı və vacib məlumatlar tələb edilib, bundan sonra 2024-cü ilin oktyabrında keçirilən parlament seçkilərində istifadə olunan bütün yoxlama aparatları möhürlənib. Qeyd olunur ki, məhkəmədə dindirilən şahidlərin əksəriyyəti istintaqa heç bir sübut təqdim edə bilməyib və onların arqumentləri yalnız üçüncü şəxslərdən alınmış dəqiqləşdirilməmiş məlumatlara əsaslanıb. Bəzi şahidlər isə bildiriblər ki, seçkilərin saxtalaşdırılması ilə bağlı açıqlamaları konkret faktlara deyil, profilaktik tədbirlərə xidmət edib. Bundan əlavə, Baş Prokurorluğun məlumatına görə, cinayət işi üzrə dörd yüzə yaxın fiziki şəxs dindirilib və şahidlərin dindirilməsi prosesi davam edir.

# K. KALADZE: "GÜRCÜSTANDA İNQİLAB OLMAYACAQ"



***"Hər bir vətəndaş sakit şəraitdə öz fikrini ifadə edə bilər, lakin heç kimə ölkədə inqilab etməyə icazə verilməyəcək".*** Bunu hakim "Gürcü Arzusu" partiyasının baş katibi, Tbilisi meri Kaxa Kaladze jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, hər bir şəxs sakit şəraitdə öz fikrini ifadə edə bilər, lakin zorakılığa keçəndə ölkədə inqilab, çevriliş etmək istəyi yaranır, bu isə baş tutmayacaq. Kaladzenin sözlərinə görə, 2024-cü il oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkilərində "Gürcü Arzusu" qalib gəlib. O, müxalifəti məğlubiyyətlə barışmağa çağırıb: *"Dövlətçilik var və inqilab baş tutmayacaq. Seçkilər var və hakimiyyət onların vasitəsilə dəyişir. Siz seçkilərdə məğlub oldunuz. Sizi gürcü xalqı məğlub etdi. bir milyon 200 min insan sülhü dəstəkləyib və faşizmə yox deyib"*, - deyə Tbilisi meri əlavə edib. Siyasətçi müxalifətə xatırladıb ki, onların nümayəndələri də Gürcüstanın vətəndaşlarıdır və ölkə qanunlarına əməl etməlidirlər.

# AZƏRBAYCAN SƏFİRİ GÜRCÜSTANIN XİN BAŞÇISI İLƏ REGİONAL MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİB

***Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyevi qəbul edib.*** Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, görüş çərçivəsində ikitərəfli gündəliyin cari məsələləri müzakirə edilib, xarici işlər naziri Maka Boçorişvilinin Azərbaycana planlaşdırılan rəsmi səfərinin təfərrüatlarına toxunulub. Qeyd olunub ki, tərəflər həmçinin Gürcüstan və Azərbaycan arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti, 10-cu iclasının yaxın günlərdə Bakıda keçirilməsini müzakirə ediblər. Tərəflər ölkələr arasında strateji tərəfdaşlığın geniş spektrini bir daha müsbət qiymətləndiriblər. Ticari-iqtisadi, nəqliyyat və enerji sahələrində uğurlu əməkdaşlığa xüsusi diqqət yetirilib. Görüşdə regionun dinc və sabit inkişafının vacibliyi qeyd edilib. Tərəflər Gürcüstan və Azərbaycan arasında mövcud nümunəvi strateji əməkdaşlığı daha da dinamikləşdirməyə hazır olduqlarını bildiriblər.



# DİNİ AGENTLİK MÜSƏLMAN İCMASINI BİRİNCİ İMAM HZ. ƏLİNİN (Ə) MÖVLUDU MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİB



***Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi Gürcüstanın müsəlman icmasını birinci İmam Hz Əlinin (ə) mövludu münasibəti ilə təbrik edərək sülh və firavanlıq arzulayıb.*** Bu barədə Dini Agentliyin rəsmi səhifəsndə qeyd olunub. Agentliyin təbrik məktubunda bildirilir ki, bu gün şiə müsəlmanları birinci İmam Hz. Əlinin (Əli İbn Əbu Talib, dördüncü xəlifə; 601-661) mövlud gününü qeyd edirlər. Qeyd olunur ki, müsəlman mənbələrinə görə, Əli İslamı qəbul edən ilk kişidir. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin yaydığı bəyanatda deyilir: *"İmam Əli müsəlman dünyasında həm mənəvi, həm də siyasi baxımdan böyük əhəmiyyət kəsb edən tarixi şəxsiyyətdir".*

# SON 5 İLDƏ GÜRCÜSTANDA PENSİYAÇILARIN SAYI 10,2 FAİZ ARTIB

***Son 5 ildə Gürcüstanın ümumi əhalisi arasında pensiyaçıların sayı 10,2 faiz artıb.*** 2024-cü ilin dekabrına olan məlumata görə, əhalinin 23 faizdən çoxu pensiya yaşında olan vətəndaşlardır.

Bu barədə Milli Statistika Xidməti məlumat yayıb.

Məlumata görə, Gürcüstanda 3 690 000 çox insan yaşayır, onlardan 864 mindən çoxu pensiyaçıdır. Pensiyaçıların ümumi sayının artması açıq-aydın əhalinin qocalması deməkdir.

*"Bütün dünyada əhalinin qocalması prosesi gedir, bu prosesə Gürcüstan da daxildir. 21-ci əsrin ən böyük problemlərindən biri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əhalinin qocalmasıdır. Pensiya yaşına çatmış vətəndaşların sayının əhalinin faiz nisbətində artması doğum səviyyəsinin azalması və orta ömür uzunluğunun artması ilə əlaqədardır.*

*Əgər ümumi doğum əmsalı 2,1-ə bərabərdirsə, bu o deməkdir ki, əhali nə artacaq, nə də azalacaq. Bütün Avropa ölkələrinin indeksi bu rəqəmdən aşağıdır. Bizdə, məndə olan son məlumat 1.9-a qədərdir. Bunu isə yaxşı vəziyyət kimi hesab etmək olmaz, əhalinin sayını yüksəltmək üçün həvəsləndirmək lazımdır.*

*Bizim orta ömür müddətimiz Qərb ölkələrindəki kimi yüksək deyil, Gürcüstanda doğum səviyyəsi aşağıdır, pensiya yaşına çatmış vətəndaşların sayı artır. Bu, mühacirətin yüksək nisbəti ilə müşayiət olunur. Mühacirətə gedənlərin yaşı təxminən 20-50 yaş arasında dəyişir, təəssüf ki, onlar mühacirətdə qalır və bu yaşda olan vətəndaşların sayı azalır, yaşlıların sayı isə artır.*

*Pensiya yaşında olan vətəndaşların sayının artması dövlətin maliyyə sisteminə böyük yük yaradır - pensiyalar daha çox verilir, səhiyyənin yükü artır, çünki yaşlı insanların müəyyən güzəştlərə ehtiyacı var. Dövlət gənclərə maksimum şərait yaratmalı, doğum səviyyəsinin artmasına şərait yaratmalıdır. Şərti olaraq, 3-cü və 4-cü uşağa aşağı kreditlə mənzil verilə bilər, 5-ci uşağa tam pulsuz və s. Ən əsası isə vətəndaşların məşğulluğunun təşviq edilməsidir, çünki ailə dövlətdən və başqalarının müavinətindən asılı olmamalıdır, ailə özünü dolandırmalıdır. Bütün bunlar çətindir, amma istəsək, vəziyyət ən azı minimal dərəcədə yaxşılaşacaq"*,- deyə demoqraf Qiorqi Meladze bildirib.



## Sitat guşəsi



"Gürcüstanda baş verən hadisələri qiymətləndirəndə və ya Gürcüstan və digər ölkələrin siyasətini müqayisə edən zaman ikili standartlarla üzləşirik. Nəticə çox aydındır. İki milyondan çox gürcü seçkilərdə iştirak edib və onların 1,2 milyona yaxını "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasına səs verib. Bu hökumətə gürcü cəmiyyəti tərəfindən çox güclü dəstək var. Son seçkinin nəticələrini şübhə altına almaq üçün real əsas yoxdur. Heç kim vəziyyətin necə gərginləşdiyini və buna kimin töhfə verdiyini görmək istəmir".

**Maka Boçorişvili,**
**Gürcüstanın xarici işlər naziri.**



"Biz tələb edirik ki, una tətbiq olunan müvəqqəti vergi dayandırılsın və çörək istehsalçılarına çörəyin qiymətini sabit saxlamaq imkanı verilsin. Nəticədə, çörəyin qiyməti artmayacaq. Bu, unu daha asan əldə etmək üçün imkan yaradacaq ki, biz də qiyməti sabit saxlaya bilək".

***Malxaz Dolidze,***
***"Gürcüstanın Çörək İstehsalçıları İttifaqı"nın sədri.***



"Əgər iqlim dəyişikliyi ilə bağlı izahatlar doğru olsaydı, meşə sahəsi Kaliforniyadan iki dəfə böyük olan Texasda iki dəfə çox ev yanğınları baş verərdi".

***İlon Mask,***
***Amerikalı milyardçı***



"Ermənistanın da uzun müddətli strateji bir anlayışla hərəkət edəcəyinə ümid edirik. Tərəflər arasında vasitəçilər olmadan ikili formatda aparılan müzakirələrə dəstəyimizi davam etdiririk. İki ölkə arasında sülh imzalanması regionda yeni fürsətlər yaradacaq".

***Hakan Fidan,***
***Türkiyənin xarici işlər naziri.***



"Rusiya ilə NATO arasında münasibətlər "soyuq müharibə" başa çatdıqdan sonra ən aşağı nöqtədə deyil. Alyans ölkəmizə qarşı durmaq və bizdən qaynaqlanan "təhlükə"nin qarşısını almaq üçün aydın kurs götürüb. Bu, bütün sahələrdə baş verir".

***Vladislav Maslennikov,***
***Rusiya Xarici İşlər Nazirliyinin Avropa problemləri departamentinin direktoru.***



"Düşmən İrana qarşı hibrid müharibəyə başlayıb və biz həmişə düşmənlə üzbəüz qarşılaşmağa hazır olmalıyıq. Düşmənin psixoloji və hibrid müharibəsinin məqsədi ictimai rəyə hakim olmaq və ağılları qeyri-qanuni maraqlara yönəltməkdir. Ona görə də düşmənin bu yanaşmasını idarə etmək və mübarizə aparmaq gündəmdə olmalıdır".

***Keyumərs Heydəri,***
***İran ordusunun quru qüvvələrinin komandanı, briqada generalı.***

## REGİON XƏBƏRLƏRİ

### Marneuli: CAVRİŞVİLİ ADINA “OFTALMIJ” GÖZ MİKROCƏRRAHİYYƏ KLİNİKASI XEYRİYYƏ AKSİYASI KEÇİRİR



18 yanvar, saat 10:00-dan etibarən Marneuli Bələdiyyə Meriyası yerləşən ərazidə –“Oftalmij” səyyar əməliyyat klinikasında pasiyentlərə aşağıdakı müayinələr həyata keçiriləcək:

- **Pulsuz göz müayinəsi;**
- **Yüksək ixtisaslı konsultasiya;**

Katarakta əməliyyatına ehtiyac yaranarsa, dövlətin ümumi səhiyyə proqramı çərçivəsində Cavrişvili adına “Oftalmij” klinikası hər bir pasiyenti pulsuz olaraq "Amerika kristalı" ilə təmin edəcək.

Ətraflı məlumat və qeydiyyatdan keçmək üçün bu nömrə ilə əlaqə saxlayın: **599 53 29 79**

***Sizlərə cansağlığı arzulayırıq!***

### Telavi: S. PRODİAŞVİLİNİN DAHA BİR UĞURU




***Gürcüstan yığması Sloveniyada keçirilən yarışda "Böyük Priz"ə sahib olmuşdur!***

Telavili Salome Prodiaşvili və kutaisili Qiorqi Mumladze iki moldovalı idmancını - Anna Dulce və Klementi Ursunu 17:13 hesabı ilə məğlub ediblər. Baxmayaraq ki, bir ara idmançılar az qala 9:13 hesabı ilə uduzurdular, lakin təslim olmayaraq on mərhələdən dördündə praktiki olaraq geri çəkilməyiblər və nəticədə əminliklə qələbə qazanaraq çempion olublar.

Komandamız bu qələbəni qarışıq cütlüklərdə 10 metr məsafəyə pnevmatik tapançadan hədəfə atəşlə qazanıb. Onlar seçmə mərhələdə də qalib gəliblər - 565 xal toplayaraq yuxarıda adıçəkilən Moldova cütlüyünü bir xal qabaqlayıblar.

### Saqareco: “QARECİ” KOMANDASI QALİB OLUB

***8 dekabr 2024-cü ildə Saqareco Mərkəzi Stadionunda 2024-cü il mövsümünün 36-cı turunun final oyununda “Qareci” komandası Milli Liqa 2-nin qalibi olub və Ali Liqaya vəsiqə qazanıb.***



Bələdiyyənin meri Avtandil Qulikaşvilinin təşəbbüsü ilə komandanın bütün üzvləri və inzibati qrup, qazanılan uğurlara görə komandanın heyətində yer alan 23 futbolçu və Qareci Futbol Klubunun prezidenti üçün bayram tədbiri keçiri-lib. - Komandanın baş məşqçisi Lazare Datunaşviliyə və futbol klubunun 13 nümayəndəsinə təşəkkürnamə, xüsusi simvolik mükafat və pul mükafatı təqdim olunub.

Bələdiyyə merinin qərarı ilə ilin ən yaxşı bombardiri Levan Papava mövsümün ən yaxşı oyunçusu kimi əlavə bonusla təltif olunacaq.

Qala-tədbirdə Bələdiyyə Şurasının sədri Aleksi Qilaşvili və yerli hökumətin digər nümayəndələri iştirak ediblər.

*"Uğur elə-belə gəlmir. Bu, böyük zəhmət, fədakarlıq, istedad, həvəs və işə sevgidir. Siz Saqareco idman tarixində mühüm addım atdınız və nailiyyətinizlə bizdə qürur hissi yaratdınız. Gürcüstan futbolu vətənimizin idman tarixi, onun inkişaf yolu, mədəni davamlılıq və özünəməxsusluq rəmzidir. Hər birimiz gürcü idman irsinin qorunub saxlanmasında üzərimizə düşən böyük məsuliyyəti dərk edirik. İdmanın inkişafı hər birimizin milli borcudur. Biz daha böyük uğurlara nail olmaq üçün səylərimizi və dəstəyimizi əsirgəməyəcəyik",* - deyə Avtandil Qulikaşvili bildirib.

## BEYNƏLXALQ HƏYAT

### S.LAVROV: "GÜRCÜSTAN 3+3 FORMATINDA ÖZ YERİNİ TUTA BİLƏR"



***Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov mətbuat konfransında bildirib.***

*“Biz Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 3+3 mexanizminin yaradılması ilə bağlı təşəbbüsünü fəal dəstəkləmişik-Cənubi Qafqazın üç ölkəsi və onların üç qonşusu: Azərbaycan, Ermənistan, Gürcüstan - Rusiya, Türkiyə, İran”,* - deyə o, qeyd edib.

Onun sözlərinə görə, yer hələ də Gürcüstan üçün mövcuddur.

*“Artıq ilk əlaqələr qurulub. Qonşumuz Gürcüstan hələ öz yerini tutmayıb, lakin bizim regionun problemlərini müzakirə edəcəyimiz masa arxasındakı bu yer onlar üçün həmişə açıq olacaq",* - deyə Lavrov söyləyib.

### ABŞ VƏ ERMƏNİSTAN STRATEJİ TƏRƏFDAŞLIQ SAZİŞİ İMZALADILAR

***Vaşinqtonda ABŞ və Ermənistan strateji tərəfdaşlıq sazişi imzalayıblar.***



İmzalanma mərasimi Dövlət Departamentinin "YouTube" kanalında yayımlanıb.

Sənədi Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və ABŞ dövlət katibi Entoni Blinken imzalayıb.

Dövlət katibi qeyd edib ki, *"Sənədin imzalanması Ermənistanla ABŞ arasında münasibətlərdə mühüm mərhələdir: Biz ABŞ—Ermənistan Strateji Tərəfdaşlıq Komissiyası yaradırıq. Komissiya bizə iqtisadi məsələlər, təhlükəsizlik və müdafiə, demokratiya, məhkəmə sistemi, inklüzivlik və insanlar arasında bir sıra əsas məsələlərdə ikitərəfli əməkdaşlığı genişləndirmək üçün yol təqdim edir",* - deyə Blinken bildirib.

Öz növbəsində, Mirzoyan qeyd edib ki, Ermənistanla ABŞ arasında ümumi dəyərlərə və qarşılıqlı maraqlara əsaslanan münasibətlər son illər əhəmiyyətli dərəcədə inkişaf edib:

*"Ermənistan—ABŞ Strateji Tərəfdaşlıq Nizamnaməsi bizə möhkəm təməl verir və əməkdaşlığımızı daha iddialı edir. O, müxtəlif istiqamətləri, o cümlədən iqtisadi və enerji əlaqələrinin gücləndirilməsi, kommunikasiyaların təkmilləşdirilməsi, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsi, demokratik təsisatların gücləndirilməsi, ədalətin təşviqi, həmçinin qanunun aliliyi, İnnovasiyalar və yüksək texnologiyaların inkişafı və əlaqələrin genişləndirilməsi kimi sahələri əhatə edir",* - deyə Mirzoyan bildirib.

Onun sözlərinə görə, *“Ermənistan—ABŞ münasibətləri elə səviyyəyə çatıb ki, strateji tərəfdaşlığın imzalanması təkcə mövcud reallığı əks etdirmir, həm də mürəkkəb geosiyasi şəraitdə fəaliyyət göstərmək üçün kritik əhəmiyyətə malikdir".*

Qeyd edək ki, İrəvan və Vaşinqton arasında ikitərəfli strateji dialoqu strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq niyyəti hələ 2024-cü ilin iyununda elan edilmişdi.

### TARİXİN ƏN BÖYÜK YANĞINI: KALİFORNİYA NECƏ KÜLƏ ÇEVRİLDİ?

***12 yanvar 2025-ci ildə Los Anceles şəhərində baş verən yanğınlar tarixinin ən böyük və dəhşətli meşə yanğınlarından hesab olunur.***



Yanğınlar nəticəsində ən azı 24 nəfər həyatını itirib, 10 mindən çox ev və iş yeri külə dönüb. 153 min insan təxliyə edilib, 166 min insan isə təxliyə əmrlərinə hazır olmaq barədə xəbərdar edilib.

Yanğın hələ davam edir və azı 13 min hektar yaşayış məntəqəsi külə dönüb. Ən böyük yanğınlar Palisades və Eaton bölgələrində baş verib və hələ də nəzarətdən çıxmış vəziyyətdədir. Yanan ərazilərdə 150 milyard dollar dəyərində maliyyə itkisi baş verib.

Yanğından ən çox zərər görən ərazilərdən biri də Malibu olub. Bu bölgə təbii gözəlliyi və dəbdəbəli həyat tərzi ilə tanınır. Yanğın nəticəsində Malibu çimərlikləri və ətraf sahələr tanınmaz hala gəlib. Eyni zamanda, məşhur aktyorlar Billy Crystal, Eugene Levy, Mel Gibson və Paris Hilton kimi məşhurlar da bu yanğından evlərini itirənlər arasındadır.

Maxar Technologies tərəfindən təqdim edilən peyk görüntüləri yanğının miqyasını daha yaxşı göstərir. Yanğının başlanğıcında Malibu sahil xətti əvvəlki vəziyyəti ilə müqayisə edildikdə, kəskin şəkildə dəyişmişdir.

Yanğınların nəzarət altına alınmaması və çox geniş sahələrə yayılması, yerli hakimiyyətin hazırlıqsız olduğunu göstərir. Baş verən yanğınlar yerli əhalinin və mütəxəssislərin ciddi tənqidlərinə səbəb olub. Ərazidə yaşayanlar yerli məmurları da sorğuya çəkirlər, çünki hakimiyyətin yanğına hazırlıqsız yaxalandığını və adekvat reaksiya vermədiyini bildirirlər. Yanğın zamanı şəhər bələdiyyəsinin sədri Karen Bassın şəhərdən kənarda olması da bu tənqidləri daha da gücləndirib. Bununla yanaşı, yanğınsöndürmə işləri zamanı şlanqlara bərkidilə bilən su kranlarının səmərəsizliyi də müzakirə olunur.

Bu ilki yanğınların sürətlə yayılmasının səbəbləri arasında hidroklimat dəyişiklikləri və Santa Ana küləklərinin təsiri ön plana çıxır. 2024-cü ildə El Nino ilə əlaqəli güclü yağış dövründən sonra, son aylarda yağıntıların olmaması, meşə yanğınlarının daha tez və geniş yayılmasına şərait yaradıb. Küləklər də yanğınların genişlənməsinə səbəb olub. Bu küləklər sürəti saatda 130 kilometrə çata bilər və yerli bitki örtüyündən daha çox nəm çıxara bilər, nəticədə yanğınlar daha sürətlə yayılır.

2018-ci ilin ən dəhşətli yanğını olan Camp yanğını ilə müqayisədə builki hadisə daha geniş miqyaslı və ağır nəticələrə səbəb olub.

### YAPONİYA RUSİYANIN 11 FİZİKİ VƏ 51 HÜQUQİ ŞƏXSİNƏ SANKSİYA TƏTBİQ EDİB

***Yaponiya hökuməti Rusiyadan 11 fiziki, 51 hüquqi şəxsə və 3 banka, həmçinin 8 ölkədən onlarla şirkətə və 1 fiziki şəxsə qarşı sanksiya tətbiq etmək qərarına gəlib.***

Müvafiq qərarları cümə günü ölkənin Nazirlər Kabineti dərc edib.

Bundan başqa, Rusiya Federasiyasına sənayedə istifadə olunan kapsaisinin və 335 növ malın, o cümlədən xüsusi avadanlıqların hissələrinin ixracını qadağan edib.

Tədbirlər xüsusilə "Alrosa"nın baş direktoru Pavel Mariniçev, "Rostex" dövlət korporasiyasının baş direktorunun birinci müavini Vladimir Artyakov, "PSV Technologies"in rəhbəri Sergey Petrov və digər səkkiz şəxsin aktivləri aşkar edilərsə, dondurulmasını nəzərdə tutur.

Sanksiyalar təşkilatlar arasında Rusiya Maşınqayırma Elmi-İstehsalat Birliyinə, Aleksinski Kimya Zavoduna, eləcə də digər Elmi-İstehsalat Birliklərinə və müəssisələrə aiddir.

Bundan başqa sanksiyalar CMRBank, RFK Bank və Timer Banka da şamil edilir. Rusiyadan daha 22 şirkət və təşkilatın ixracına məhdudiyyətlər tətbiq edilib.

Eyni tədbirlər Çin (18), BƏƏ (1), Qazaxıstan (1), Qırğızıstan (2), Tailand (1) və Türkiyədən (8) olmaqla 31 şirkətə də şamil edilib.

Bundan əlavə, aktivlərin dondurulması bir KXDR vətəndaşına, eləcə də Gürcüstanın MRB Bankına aiddir.



# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÖY**[2] *sif* 1. Səma rəngi; mavi. *Göy rəng.* // Bu rəngdə olan. *Göy parça.*

*Məhərrəmliyin dördüncü günü göy çarıqlı … nabələd bir axund Naxçıvan şəhərinin Bazar küçəsində gəzirdi.*

Qantəmir.

2. Zərbə, bərk bir şeyə toxunma və s. nəticəsində bədənin hər hansı bir yerində əmələ gələn ləkə; qançır. *Qolunda göy var.*

**GÖY**[3] 1. *sif.* Yaşıl. *Göy meşə. Göy çəmən. Göy göyərçin.*

Seyrə çıxar uşaqlar,
Göy çəməndə oynaşar.

A. Səhhət.

2. *sif.* Yetişməmiş, dəyməmiş, kal. *Göy nar. Göy alça.*

**GÖY**[4] *sif. dan.* Simic, xəsis. *Göy adam.*

*Yüz il əlində çıraq axtarsa Polad kimi göyü tapılmaz.*

A. Şaiq.

**GÖY**[5] *is.* Kürəkən, ata üçün qızın əri.

**GÖYCƏÇİÇƏK** *is. bot.* Ləlıkvari yarpaqları və göy çiçəkləri olan çoxillik ot bitkisi.

**GÖYCƏQARĞA** *is. zool.* Alaqarğadan kiçik oxuyan quş. *Sarı bülbüllər, torağaylar, göycəqarğalar, n…ənlikli bülbüllər hərəsi bir cür səslə oxuyub səs-səsə verirlər.*

E. Sultanov.

**GÖYƏM** *is. bot.* Cır və peyvənd cinsləri, göy rəngli, turşməzə, ağızbüzüşdürücü meyvəsi olan kol-ağac. *Göyəm ağacı.* // Həmin meyvənin kolu, ağacı. Bu meyvədən bişirilmiş, hazırlanmış. *Göyəm mürəbbəsi. Göyəm kompotu.*

*Göyəm … çox budaqlanan koldur və ya 3-4 metr hündürlükdə ağacdır.*

H. Qədirov.

**GÖYƏRÇİN** is. 1. İri çinədanlı, göy-boz rəngli quş, əhliləşdirilmişləri çox vaxt ağ rəngdə olur.

*Məscidin damındakı göyərçinlər kəsik-kəsik uğuldayırdılar.*

M. Hüseyn.

2. *məc.* Nəvaziş, oxşama, əzizləmə məqamında işlədilir (bəzən "göyərçinim" şəklində). *Göyərçin qızım.*

*Bil ki, cəhənnəmin hər əziyyəti,*
*Səndən uzaq olar… göyərçin balam!*

S. Vurğun.

◊ **Sülh göyərçini** – sülh simvolu kimi qəbul olunmuş ağ göyərçin şəkli.

**GÖYƏRTƏ** *is. [əsli ital. ]* Gəmi gövdəsinin üst hissəsindəki açıq sahə. *Göyərtəyə çıxmaq. Göyərtədə gəzinmək. Yükləri göyərtəyə yığmaq. Göyərtədə sıxlaşmış sərnişinlərin rəngbərəng yaylıqları titrəşirdi.*

M. Hüseyn.

**GÖYƏRTİ**[1] *is.* 1. Ümumiyyətlə bitkilər (ot, ağaclar, yarpaqlar).

*Hansı şeydir dəyişməyib dünyada,*
*Göyərti də, heyvanat da, hava da.*

A. Səhhət.

2. Yeyilən və xörəyə işlənən otlar; göy, səbzəvat. *Göyərti qutabı. 5 dəstə göyərti.*

**GÖYƏRTİÇİ** *is.* Göyərti əkib becərmək və satmaqla məşğul olan adam.

**GÖYNƏTMƏK** *icb.* 1. Qıcıqlandırmaq, acışdırmaq, qaşındırmaq. *Dərman yaranı göynətdi.*

[Nəcəfalı] *qozdan bir neçəsini qoynuna doldurdu, qərzəkli qoz ətini göynətdi.*

B. Bayramov.

*2. məc.* Narahat etmək, nigarançılıq doğurmaq, incitmək, ruhi əzab vermək.

*İndi* [Tahirin] *fikrini ana həsrəti göynədirdi.*

M. Hüseyn.

**GÖYÖSKÜRƏK** *is. tib.* Adətən uşaqların tutulduğu sürəkli üzücü öskürək şəklində təzahür edən yoluxucu xəstəlik.

**GÖYRÜŞ** *is. bot.* Ləlıkvari yarpaqlı, qanadlı meyvəsi olan, ağır və möhkəm oduncaqlı ağac; vən.

*Göyrüş və ya vən ucaboylu, qışda yarpağı tökülən ağacdır.*

H. Qədirov.

**GÖYTÜRK** *is. tar.* Orta Asiyada yaşamış qədim bir türk ulusu və bu ulusdan olan kimsə. *Göytürk xaqanlığı.*

**GÖYTÜRKCƏ** *is.* Göytürk dili, Orxon türkcəsi.

**GÖZ** *is.* 1. İnsan və heyvanda görmə orqanı. *Qara gözlər. Ala gözlər. İri göz.*

*Xumar-xumar baxmaq göz qaydasıdır,*
*Lalətək qızarmaq üz qaydasıdır.*

M. P. Vaqif.

**Göz ağı** *anat.* – gözün ağ rəngli qabarıq qeyri-şəffaf qişası.

**Göz alması** *anat.* – gözün, göz ağı və göz qarasının da daxil olduğu şarşəkilli hissəsi.

**Göz qapağı** – *bax* **qapaq** 2-ci mənada.

*Rzaqulu xan yalvardıqca Böyükxanım göz qapaqlarını bir-birinə çalıb hərdən bir qətrə göz yaşı tökürdü.*

M. S. Ordubadi.

**Göz qarası (bəbəyi)** – *bax* **bəbək** 1-ci mənada.

**Göz yuvası** *anat.* – kəllənin üz hissəsində göz almasının yerləşdiyi batıq; göz çuxuru.

//**Gözüm** şəklində – əzizləmə, nəvaziş, oxşama, mehribanlıqla müraciət. [Qurbani:]

*Canım təbib, gözüm loğman,*
*Mənim dərdim ara tez-tez.*

"Qurbani".

2. Görmə qabiliyyəti, görmə. İ*ti göz. Gözü zəifləmək.*

**3. Gözümdə (gözündə)** şəklində – nəzərimdə (nəzərində), mənə görə (ona görə), mənim fikrimcə (onun fikrincə). *Mənim gözümdə o heç bir şeydir. Sənin gözündə o, böyük adamdır*.

4. Nəzarət, baxım. *Uşağın üstündə göz lazımdır.*

5. Xırda dəlik, deşik. *Aşsüzənin gözləri. İynənin gözü.*

*Gilli məhlul baltanın gözlərindən (dəliklərindən) çıxaraq … quyunun ağzındakı nov sisteminə tökülür.*

S. Quliyev.

6. Bulağın başladığı yer, suyun çıxdığı yer; qaynaq, mənbə. *Bulağın gözü tutulub.*

*Qaynar bulaqların gözündən içər,*
*O ellər gözəli, o el yavrusu.*

S. Vurğun.

7. Kiçik pəncərə (kassada, poçtda və s.-də). [Qulam müəllim] *şüşə gözün müqabilinə gəldi, vərəqəni uzatdı.*

S. Rəhimov.

//Keçmək üçün hasarda, divarda açılmış dəlik. *Hasardan qonşu bağa göz açmaq.*

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Hərf | | Əlifba sırası ilə adı | Hərf | | Əlifba sırası ilə adı | Hərf | | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| **ა** | a | ან | **მ** | m | მან | **ღ** | ğ | ღან |
| **ბ** | b | ბან | **ნ** | n | ნარ | **ყ** | ğ* | ყარ |
| **გ** | q | გან | **ო** | o | ონ | **შ** | ş | შინ |
| **დ** | d | დონ | **პ** | p* | პარ | **ჩ** | ç | ჩინ |
| **ე** | e | ენ | **ჟ** | j | ჟან | **ც** | ≈ ts* | ცან |
| **ვ** | v | ვინ | **რ** | r | რაე | **ძ** | ≈ dz | ძილ |
| **ზ** | z | ზენ | **ს** | s | სან | **წ** | ≈ ts | წილ |
| **თ** | t | თან | **ტ** | t* | ტარ | **ჭ** | ≈ tç | ჭარ |
| **ი** | i | ინ | **უ** | u | უნ | **ხ** | x | ხან |
| **კ** | k* | კან | **ფ** | p | ფარ | **ჯ** | c | ჯან |
| **ლ** | l | ლას | **ქ** | k | ქან | **ჰ** | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**ჩვენი ჯანმრთელობა დავიცვათ!** (Çveni canmrteloba davitsvat!) **- Sağlamlığımızı qoruyaq!**

**ჩვენი ჯანმრთელობა ჩვენი ყველაზე დიდი სიმდიდრეა.** (Çveni canmrteloba çveni ğvelaze didi simdidrea!) **- Sağlamlığımız bizim ən böyük sərvətimizdir.**

**ზრუნვა საკუთარ ჯანმრთელობაზე მნიშვნელოვანია.** (Zrunva sakutar canmrtelobaze mnişvnelovania!) **- Öz sağlamlığımıza qayğı göstərmək vacibdir.**

**პირველ რიგში, აუცილებელია ჯანსაღი კვება.** (Pirvel riqşi, autsilebelia cansaği kveba.) **- İlk növbədə sağlam qida önəmlidir.**

**ნატურალური ხილი და ბოსტნეული ჩვენი ორგანიზმისთვის აუცილებელია.** (Naturaluri xili da bostneuli çveni orqanizmistvis autsilebelia.) **– Təbii meyvə və tərəvəz orqanizmimiz üçün vacibdir.**

**შაქრის და ცხიმიანი საკვების მიღება უნდა შევზღუდოთ.** (Şakris da tsximiani sakvebis miğeba unda şevzğudot.) **- Şəkərli və yağlı qidaların qəbulunu azaltmalıyıq.**

**მეორეც, რეგულარული ფიზიკური აქტივობა ჯანმრთელობის გასაღებია.** (Meoret, requlari fizikuri aktivoba canmrtelobis qasağebia.) **- İkinci olaraq, müntəzəm fiziki fəaliyyət sağlamlığın açarıdır.**

**სეირნობა, სირბილი და ვარჯიში ენერგიას გვმატებს.** (Seirnoba, sirbili da varcişi enerqias qvmatebs.) - **Gəzmək, qaçmaq və idman etmək bizim enerjimizi artırır.**

**მნიშვნელოვანია დღეში მინიმუმ 30 წუთის ვარჯიში.** (Mnişvnelovania dğeşi minimum 30 tsutis varcişi.) - **Gün ərzində minimum 30 dəqiqə idman etmək vacibdir.**

**ასევე, კარგად გამოძინება ჯანმრთელობისთვის აუცილებელია.** (Aseve, karqad gamodzineba canmrtelobistvis autsilebelia.) **- Həmçinin, yaxşı yatmaq sağlamlıq üçün vacibdir.**

**ძილი ენერგიას აღგვიდგენს და იმუნიტეტს აძლიერებს.** (Dzili enerqias ağvidqens da imunitets adzlierebs.) **- Yuxu enerjimizi bərpa edir və immunitetimizi gücləndirir.**

**კიდევ ერთი მნიშვნელოვანი ფაქტორი სტრესის შემცირებაა.** (Kidev erti mnişvnelovani paktori stresis şemçirebaa.) **- Digər önəmli amil isə gərginliyi azaltmaqdır.**

**ჩვენი ემოციების რეგულირება ხელს უწყობს ორგანიზმის კარგად ფუნქციონირებას.** (Çveni emotsiebis requlireba xels utsğobs orqanizmis karqad punktsionirebas.) **- Hislərimizin cilovlanması orqanizmimizin yaxşı işləməsinə kömək edir.**

**მოდით, ვიზრუნოთ საკუთარ ჯანმრთელობაზე!** (Modit, vizrunot saqutar canmrtelobaze!) **- Gəlin, öz sağlamlığımıza qayğı göstərək!**

# II İRAKLİ VƏ XUDU BORÇALI

## (TARİXİ POVEST)

***Bütün Gürcüstanda əzəmətli, cəsur olan Xudu Borçalı.***

**Teymuraz Baqrationi**

*(Əvvəli ötən sayımızda)*

Xudu papağı başından götürəndə, ev sahibi onu nəzakətlə alıb, damın divarının içindəki papaqla dolu oyuğa-hərməyə qoydu. Stolun üstündə çəçil, pendir, xımı turşusu, soyutma kartof və bir də közdə bişirilmiş kartov kababı var idi. Bayaq kabab hazırlayanlardan biri kiçik araq badələrini süzdü. Qonaq üçün də badə gətirtdi.

Xudu dilləndi:

—Sağ olun, mən içmirəm.

—Onda kababdan buyur. Ayı ətinin kababıdır. Bəlkə də heç ömründə yeməmisən. Çox ləzzətlidir. Qışda səhərlər mal-qoyunumuzu alaflayandan sonra, yaz-yay aylarında isə malı naxıra, qoyunu sürüyə qatandan sonra ova çıxırıq, ayı ovuna, bu tərəflərdə ayı çoxdur. Birimiz vuranda hamımızı dəvət edirik. Dünən elə dostumuz, ev yiyəsi bir ayı vurmuşdu. Bu gün onun ailəsində kef çəkirik. Bir neçə gün bu məclisimiz davam edəcək. Ona kimi də bizdən kimsə ovlayacaq.

Xudu tərəddüd etdi:

—Nəfsim çəkmir, yeyə bilmərəm. Pendirdən, kartofdan yeyərəm.

— Xımıdan buyur. Kartofla yaxşıdır. Görünür aran tərəfinin adamısan, sizdə bu kımı turşunu bilməzlər.

Xudu pendirdən bir çimdik götürdü, kartofdan yavaş-yavaş yeməyə başladı, xımının da dadına baxdı, çox xoşuna gəldi.

Birisi, ondan soruşdu:

—Nə əcəb bu tərəflərə yolun düşüb, belə deyəndə də pis çıxır, xoş gəlibsən, səfa gətiribsən, hər halda bu tərəflərə gəlməyinin bir səbəbi vardır.

— Axalsixedən gəlirik. Məngilisdəyik. Diğom çayını keçmək, Kaxetə getmək istəyirik. Qarapapaqların başçısı Təhməzqulu ağa iki yüz nəfər qoçaq mərd qarapapaq seçdi və Axalsixedən Məngilisə gəldik. (Həmin vaxt Məngilis və o tərəflər tamamilə viran edilmişdi - M. M.). Oradan gecə Diğom çay keçidinə çatdıq, Kaxetə doğru keçmək istədik, lakin Kür çox daşmışdı. Yaz idi. Artıq nə edə bilərdik, yenə geri Məngilisə qayıtdıq, buradan həftədə iki dəfə adamlar göndərirdik, Kürün vəziyyəti barədə xəbər gətirirdi. "Yenə çox gəlir" deyirdilər. Bu Kaxet üsyanı zamanı (həmin vaxtlar şahzadə Aleksandre İranda idi - M.M.) şahzadə Aleksandreyə kaxetlilərdən göndərilən adamlar və məktub çatanda, fərəhlə, uça-uça gələrək Axalsixeyə çatdı (bu şəhər hələ yenə də osmanlıların əlində idi). Onu buraya qaçıb gələn qarapapaqlar dövrəyə aldılar. (Borçalıdan qaçan tərəkəmələri belə adlandırırdılar). Ona xidmət göstərmələrini təklif etdilər. O da məmnun olub razılaşdı. Bizim Məngilisdə olmağımız və Kürün daşması xeyli uzandı. Bu vaxtlar azuqəmiz azaldı. Odur ki, sizlərə pənah gətirdim. Pendirdən, çəçildən, kartofdan, yeməyə nə varsa almaq istəyirəm.

— Adını bağışla, eloğlu, biz sənə əlimizdən gələn köməkliyi edəcəyik. İnsan insana nə gündə yarayar?!

— Xududur mənim adım, Xudu Borçalı da çağırırlar. Tiflisdə yaşayıram.Tiflisliyəm.

Süfrə arxasında olanlardan biri onun adını eşitmişdi. Aspindzada öz yoldaşları ilə etdiyi qəhrəmanlıqdan məlumatı var idi. Odur ki, qalxıb Xudunun yanına gəldi, onu qucaqladı və üzünü süfrə üzvlərinə tutdu:

—Bu, qorxmaz, cəsur, igid Xudu Borçalı bizim də fəxrimizdir. Onun sağlığına içək.

O, badəsini boşaldaraq yerə qoydu, ev yiyəsinin uşağını yanına çağırdı və dedu:

—Mən bu uşaqla gedim, bir az azuqə toplayım. Siz ona kimi məclisi davam etdirin.

Xudu kartof kababından, xımıdan, çəçildən az-az yeyir, onları ayı ətindən ləzzətlə yeməsindən xüsusu zövq alırdı. Bura gəlməyinə, birada ona belə hörmətlə yanaşmalarına sevinirdi. Ordan-burdan bir az söhbət etdilər. Bir az durumdan danışdılar. Kişilikdən, qeyrətdən söz açdılar. Bir də gördülər ki, azuqə dalınnan gedənlər gəldi. Yarımçıq bir motal və bir neşə baş pendir, bir az da xamralı və fətir gətirdilər. Motalın üstünü burda ev yiyəsi təpərək doldurdu. Bir iki baş da pendir əlavə edərək iki çuval düzəltdilər. Xudu onlara pul vermək istədi.

*(Davamı növbəti sayımızda)*

**Mirzə Məmmədoğlu,**
**Tədqiqatçı - jurnalist.**

*YUBİLEY*

# RÖVŞƏN NƏSİBOĞLU, 75 İLLİK YUBİLEYİN MÜBARƏK!

Mən Rövşən Nəsiboğlunu orta məktəb illərindən tanıyıram. Onun məktəbdə yaxşı oxumağı, səliqəliliyi, hazırcavablığı, məktəbdə olan tədbirlərdə fəal iştirak etməsi və şagird yoldaşları ilə dostluğu çox yüksək idi. Bir gün məktəbin həyətində maraqlı hadisənin şahidi oldum. O, yaz vaxtı ağacların yaşıl libasına baxıb, onu insanların geyimi ilə müqayisə etməyə başladı. Fikir verin (özü yuxarı sinifdə oxuyurdu), ağaclar yaşıl libasını geyinməyə başlayır, insanlar isə qalın paltarlarını yuxa paltarla əvəz etməyə, qışda isə əksinə…Hər ikisi də canlıdı, tənəffüs edirlər. Tənəffüs etməyən cisimlər canlı deyil.

Şagirdlərdən biri sual verdi:

— Qış ayında ağaclar üşümürmü?

O, uşağı başa salmağa başladı:

— Ağacın gövdəsində qabıq, qabığının altında gövdə, gövdəsinin içində nazik borular olur, həmin borularla maye axır, qabıq ağacları soyuqdan və istidən qoruyur. Ona görə də ağacların qabığını soymaq olmaz, ağaclar quruya bilər.

Şagirdlər razı qaldılar. Müəyyən bacarıqlar onda hiss olunurdu...

Rövşən Nəsiboğlu 1950-ci il yanvarın 11-də Marneuli rayonunun Kürüstü Kəpənəkçi kəndində anadan olub. Azərbaycan DPU-nun filologiya fakultəsini bitirib. 1971-ci ildə öz doğma kəndində pedaqoji fəaliyyətə başlayıb. O, gənc yaşlarından bədii yaradıcılıqla da məşğuldur. "Sovet Gürcüstan", "Axali Marneuli", "Trialeti", "Ədəbiyyat və İncəsənət", "Kommunist", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" qəzetlərində, "Çeşmə" və "Dan ulduzu" ədəbi dərnəklərinin fəallarından biri kimi şeirləri, hekayə və publisistik yazıları oxucuların görüşünə çıxıb.

Azərbaycan Dövlət Televiziyası və radiosunda, Gürcüstan Dövlət radiosunda dəfələrlə çıxış edib, yaradıcılığından nümunələr oxuyub. Azərbaycanın görkəmli söz bahadırlarından olan böyük şair M.H. Şəhriyarın 70 illik yubileyi münasibəti ilə yazdığı "Şəhriyarım" şeiri həmin illərdə İranda "Varlıq" jurnalında çap olunub, Təbriz Radiosunda səsləndirilib. Həmin şeirdən bir bəndini sizin nəzərinizə çatdırıram;

Xudafərin üzərindən karvan keçə,
Araz, suyun kaş, "durula" hamı içə.
Ordan bura, burdan ora gəlin köçə,
O taydan bir yar sevəydi ilk nübarım.
Şəhriyarım, Şəhriyarım, Şəhriyarım.

1980-ci illərdə R. Nəsiboğlunun pedaqoji fəaliyyəti Gürcüstan təhsil nazirliyi tərəfindən yüksək qiymətləndirilib. Ona Respublikanın "Əlaçı müəllimi" adı verilib. Sonra Marneuli rayon xalq təhsil şöbəsinə işə dəvət olunub. "Metodist müəllim" adına layiq görülüb. Gürcüstanda fəaliyyət göstərən Azərbaycan məktəbləri üçün, Azərbaycan dili və ədəbiyyat fənlərinin tədris və imtahan proqramlarına müəlliflik edib və redaktor olub.

Azərbaycan dili və ədəbiyyatdan keçirilən rayon, zona və Respublika olimpiada komissiyalarının üzvü olub. Gürcüstan ali məktəblərinin Azərbaycan sektorunda dəfələrlə qəbul imtahanlarında iştirak edib.

1990 - cı illərdə Bakı şəhərində "Təhsil" və "Şərqin səsi" qəzetlərində Gürcüstan üzrə xüsusi müxbir kimi fəaliyyət göstərib. "Kökdən budağa" və "Torpaqdan yarpağa" kitablarının şərikli müəllifi, həm də məsul redaktoru olub. "Haqqa sarı" və "Haqqın harayı" şeirlər kitablar çap olunub. Neçə-neçə müəlliflərin kitablarına təmənnasız redaktorluq edib.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Rövşən Nəsiboğluyla söhbət edərkən, insanlar arasında olan mənəvi aclığı tez bir zamanda götürmək olur. O, hər sözə, kəlməyə şirinlik donu geydirir və insanların ruhuna elə axıdır ki, belə söhbətin şirinliyindən ayrılmaq istəmirsən. İnsanlar arasında söhbət etməklə sözün abrını və şərəfini ucalıq zirvəsinə qaldırır.

O, sadə, səmimi, nəcib, təvazökar, xeyirxah, qayğıkeş, hər kəsin sevincini öz sevinci, dərdini öz dərdi bilən bir dəyərli ziyalıdır. İnsanpərvərliyi ilə həmişə sevilib, böyük hörmət sahibi olub.

O, həqiqətə nəvaziş göstərən, eyni zamanda yalana qarşı qəddar olan həssas, mərd, sözünü yerində işlədən, cəsarətli bir şairdir.

Şeirinin birində deyir;

Məni dəyişə bilməz,
Nə zaman, nə də dövran.
İstəyirsən and içim:
Bu Allah, bu da Quran.

R. Nəsiboğlu nə yazırsa nənələrimizin bayatı dilinə və babalarımızın dastan dilinin ruhuna köklənib yazır:

Nəfsini tox saxla, otarma qarın,
Allaha, bəndəyə gör nə xoş gedər.
Burda əli pulla oynayanların
Çoxu o dünyaya əli boş gedər.

O, ömrü boyu halallığı hər şeydən üstün tutan, haqqı nahaqqa qurban verməyən, sözünü həmin anda deyən, mənəvi dəyərlərimizə önəm verən dəyərli ziyalımızdır. Ətrafına xoş niyyətli, sözünü ölçülü - biçili bilən insanları toplamaqla özündə qürur duyur.



Bu günlərdə qonşum meşəbəyi Mirzə Ənvər oğlu Rövşən Nəsiboğlunun duzlu-tamlı söhbətində iştirak edib: "Rövşən müəllim şirin söhbəti ilə elə bil insanları ovsunlamışdı, hamı diqqətlə ona qulaq asırdı. Vallah, məni qınamayın, adam var söhbət edir, ətrafında oan adamları yorur və tez aralanmaq istəyirsən. Amma Rövşən müəllim sözü yerində urlu-urvatlı işlətməklə sözün nüfuzunu və dəyərini artırır, insanlarda ruh yaşadır".

O, qohumcanlı, dostcanlı, vətəncanlı insandır. Dostlara qarşı sadiqdir. Allah Ağamalı Sadiq Əfəndiyə rəhmət eləsin, onun 40-cı günü qəbrinin üstündə özünün "Heyif sənə, Bəy Əfəndi" şeirini oxudu, şeir hərkəsə təsir etdi. Həmin mərasimdə Azərbaycanın keçmiş Baş prokuroru İxtiyar Şirinov və keçmiş maliyyə naziri Sabit Bağırov da iştirak edirdi. Həmin Şeiri Rövşən müəllimdən götürdülər, 3-4 gündən sonra şeir müxtəlif qəzetlərdə dərc olundu:

Ölüm, sevin, ölüm öyün,
Dərdlərimiz düyün-düyün,
Yaşayacaq səsin-ünün,
Heyif sənə, Bəy Əfəndi,

***("Haqqın harayı" kitabından)***

Onun şəxsi kitabxanasında iki mindən artıq kitab, qəzet və jurnal var. Oxucular lazım olduqda kitabxanadan istifadə edirlər. Əgər bir adam sözə yaxındırsa o, Allaha da yaxındır. Allahdan sonra sözün yarandığını deyənlər yanılmır. İnsan elə müqəddəs varlıqdır ki, dar gündə də, gen gündə də sözə tapınıb, sözə sığınıb. Rövşən müəllim sözə güvəndi, sözü özünə yol yoldaşı seçdi. Heç kəsin kölgəsində kölgələnmədi, ancaq sözün kölgəsində kölgələndi. İncə dərəsindən Rövşən müəllimin yaxın dostu, istedadlı şair Akif Səməd "əl" boyda kağızda Rövşən müəllimə məktub yazıb. Onu olduğu kimi sizə təqdim edirəm. "Batan bulaq itmir, hardasa üzə çıxır. Söz hər şeydən öncədir. Öncə olan sözü, nə vaxtsa batan sözü səndə gördüm, Rövşən bəy. Nə Osman Əhmədoğlunda, nə Abbas Abdullada, Arazda, nə məndə; nə də ustad Kamandara qismət olmayan sənə qismət olub. Hərənin öz yeri var. Hərə öz taxtında oturur. Kürüstü Kəpənəkçidəki taxtın ucadır. Hər yerdən görünmürsə, darılma. Sən söz adamısan. Sözün səbri və ömrü uzun olur. Sözə etibarlı ol. Sən ona sığın. Biz sənin yanına gələcəyik. Kağız qurtarır, söz qurtarmaz"

**Akif Səməd, 11.04.1994**

O, söhbət edərkən hadisələri o qədər təbii və obrazlı danışır ki, hər kəs bu söhbətin mənəvi zəngilliyinin qatlarına enib özü üçün müəyyən Olanları yaddaşına hopdurur. Rövşən Nəsiboğlunun dostları çoxdur: Elxan Məmmədli, Ömər Qoçulu, Məmməd İlqar, Rəfail İncəyurd, İbrahim İlyaslı, Nofəl, Nəvai və s. Onlardan biri İncə dərəsindən olan( Qazax rayonunun Kəmərli, Qaymaqlı və Astanbəyli kəndlərinin üçü bir yerdə İncə dərəsi adlanır) rəssam, heykəltəraş və sair Məmməd Dəmirçioğludur. Məmmədin 7-8 yaşı olanda maraqlı bir hadisəyə rast gəlir. Həmin hadisəni Rövşən müəllim olduğu kimi şirin ləhçədə insanlara çatdırıb.

Rövşən müəllimin söhbətini olduğu kimi nəzərinizə çatdırıram:

" Məmmədin 7-8 yaşı olanda atası ona deyir:

—A bala, o uzun kəndiri götür apar bu uzunqulağı İncə çayının anarı üzündə cələnin əyağına örühlə.

Məmməd qayıdıb gələndə anasına dedi:

—Ay ciji, çaya çatanda gördüm ki, çayın əyaq tərəfində ağ saqqallı, göy çuxalı, göy əmmaməli bir kişi çayda abdəst alır. Mən uzunqulağı çaya girməyə qoymadım. Suyu bulandırardı deyə o kişinin aşağı tərəfindən addatdım. Qayıdanda göy otun üstündə namaz qılırdı. Bir gözəl atı var idi. Sonra o, nuranı baba məni yanına çağırıb adımı soruşdu. Məmməddir, dedim.

—Adın mübarək, elə adına yaraşan balasan-deyib başımı sığalladı.

—Çox sağ ol, bala sən ki, o uzunqulağı suyun baş tərəfindən keçirmədin, ədəbin-ərkanın çox xoşuma gəldi. Mən Xızır peyğəmbərəm bala, hər adamın gözünə görünmürəm. Gözünə göründüyüm adamın isə istədiyi bir arzusunu yerinə yetirirəm.

İndi ürəyindən nə keçirsə istə, dərhal yerinə yetəcək.

Anası soruşdu - Nə istədin, ömrüm – günüm, nə istədin, a malım-pulum?

—Əlimdəki çubuğu iri bir daşın üstünə qoyub, - dediklərin düzdürsə, bu daşı qum elə görüm-dedim. O, nuranı baba başını bulayıb təəssüf dolu bir səslə: - istəyin hasil oldu - deyib qeyb oldu. Ora-bura baxdım, mat qaldım. Ağ atını minib hara qeyb oldu bilmirəm.

— Ədə, niyə demədin bu daşı qızıl elə, niyə özünə bəxt, yığval istəmədin? Ədə o qum sənin nəyinə lazım idi.

Bunu eşidən qonum - qonşular balaca qum təpəciyindən ovuc-ovuc evlərinə apardılar.

Rövşən müəllim bir məqaləsində yazır:

*"Elə daşı qum elətdirmək idi ki, Məmməd bir ömür boyu daşla, gillə, qumla, torpaxla əlləşdi, çörəyi ordan çıxır. Özü isə sözün əsiri, qulu, pərvanəsi oldu. Sözdə alışdı sözdə əridi".*

R. Nəsiboğlu qayğıkeş ata, nümunəvi ailə başçısıdır. Ömür - gün yoldaşı Bağdad xanımla dörd qız, bir oğlan böyüdüb ərsəyə çatdırmışlar. Hamısı da valideynlərinin boya - başa çatdırdıqları el-obanın adına layiqdir. 14 nəfər nəvə- nəticəsi var. Allah qorusun hər birini!

***75-ci yaşınız - bayramınız mübarək! Sizə möhkəm can sağlığı, yaradıcılığınızda yeni-yeni uğurlar arzulayırıq Rövşən müəllim!***

**Rüstəm Dəmirçiyev,**
**Suddarxan Kazımov.**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

საქართველოს რესპუბლიკა
www.sak.ge • ელ. ფოსტა: sak@sak.ge
№2 (9834) 2025 წლის 9 იანვარი, ხუთშაბათი.

## "SAKARTVELOS RESPUBLİKA"

### 2024-cü İLDƏ GÜRCÜSTAN PARLAMENTİNİN MİLLİ KİTABXANASININ ƏMƏKDAŞLARI BİR ÇOX KİTAB VƏ JURNAL-QƏZETİ BƏRPA EDİBLƏR

Kitabxananın yaydığı informasiyaya əsasən, 2024-cü ildə Gürcüstan Milli Kitabxanasında bir çox nəşr bərpa edilərək cildlənib.

Milli Kitabxananın Konservasiya və Bərpa şöbəsinin ötən il gördüyü işlər bunlardır:

2131 kitab (cəmi 20481 vərəq), bunlardan 356 nadir nəşr bərpa edilib və cildlənib; 2573 dövri nəşr ( cəmi 5296 jurnalın və 7303 qəzetin vərəqi) tikilib və cildlənib; 1486 mikroklimatik konteyner hazırlanıb; 3677 əşya təmizlənib və dezinfeksiya olunub; 21 plakat və 9 xəritə bərpa edilib.

2024-cü ildə şöbə üç mühüm yeniliyi öz təcrübəsinə daxil edib:

1.1791-ci ildə İkinci İraklinin mətbəəsindən çıxmış "Jamni"nin bərpası zamanı ilk dəfə cüzi fraqment əsasında metal qıfılın bərpası imkanı yaranıb;

2. Qızıl suyu ilə boyanmış cilddə "Pələnq dərisi qeyinmiş cəngavər" in bərpasında yeni texnologiyadan istafadə edilib, nəticədə nadir nəşr öz əvvəlki vəziyyətinə qayıdıb;

3. İlk dəfə şərq cildi hazırlanıb və kitabxananın nadir nəşrlər fondunda saxlanmış ərəb əlyazması bərpa edilib.

Dövri nəşrlərə aid muzey fondunun 300-ə qədər qəzeti bərpa edilib. Ən tez yararsız hala qəzet vərəqləri düşür, ona görə də sözügedən fondun emal edilməsi mütləq və çox önəmli idi.

XIX - XX əsr nəşrləri konservasiya və bərpaya olundu, bu da onların ömrünü əhəmiyyətli dərəcədə uzatdı.

20-ci əsrin əvvəllərində məşhur gürcü rəssamlarının illüstrasiyaları ilə çəkilmiş kağız kitablar yenidən dirçəldilib və onlar modernist dekorasiya üslubuna görə xüsusi dəyərə malikdir.

Konservasiya və Bərpa İdarəsinin yeni laboratoriyası 2025-ci ildə də bir sıra mühüm nəşrləri bərpa etməyi planlaşdırır. Onlara uğurlar arzulayırıq.

### İNDONEZIYA BRİKS-in ONUNCU TAMHÜQUQLU ÜZVÜ OLUB

BRİKS-in tamhüquqlu üzvlərinin sayı ona çatıb. Təşkilata Asiya nəhəngi İndoneziya da qoşulub.

Əhali sayı baxımından dünyada dördüncü yerdə olan dövlət 6 yanvarda sözügedən blokun üzvü olub. Bu haqda məlumatı BRİKS-in qurucularından biri və 2025-ci il ərzində blokun sədr-dövləti olan Braziliya yayıb.

Braziliya Xarici İşlər Nazirliyinin məlumatına görə, İndoneziyanın təşkilata namizədliyini üzv ölkələrin liderləri 2023-cü ilin avqustundan təsdiqləyiblər, amma dünyanın dördüncü ən sıx məskunlaşmış dövləti yeni seçilmiş hökumətin formalaşmasına qədər təşkilata üzvlüyü dayandırıb.

Bu münasibətlə rəsmi Cakartanın yaydığı məlumatda deyilir: *"Bu nailiyyət İndoneziyanın qlobal çağırışların həllində getdikcə daha fəal rol oynadığını və daha əhatəli və ədalətli qlobal struktur yaratmaq üçün çoxtərəfli əməkdaşlığı gücləndirmək öhdəliyini təsdiqləyir".*

BRİKS hal-hazırda on üzv dövlətdən ibarətdir: Braziliya, Rusiya, Çin, Cənubi Afrika, Hindistan, İran, Misir, Efiopiya, Birləşmiş Ərəb Əmirlikləri və İndoneziya. Təşkilata üzvlük Səudiyyə Ərəbistanına da təklif edilib, lakin krallıq hələ bu haqda qərar verməyib. BRİKS-in tərəfdaşları Azərbaycan, Türkiyə, Tailand, Malayziya, Əlcəzair, Vyetnam, Belarusiya, Boliviya, Kuba, Qazaxıstan, Nigeriya, Uqanda, Özbəkistandır. Bunlardan Azərbaycan, Türkiyə və Malayziya təşkilata üzvlük barədə rəsmi müraciət ediblər.

ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp BRİKS dövlətlərini, beynəlxalq ticarətdə dolları əvəz etmə cəhdləri edəcəkləri halda, 100 faizlik gömrük tarifləri ilə hədələyib.

კვირის პალიტრა

## "KVİRİS PALİTRA"

*10 yanvar 2025-ci il*

### "ÇÖRƏK İSTEHSALÇILARI ŞURASININ" SƏDRİ: "ÇÖRƏYİN QİYMƏTİ 10-15 TETRİ BAHALANA BİLƏR"

Gürcüstan Çörək İstehsalçıları İttifaqının sədri Malxaz Dolidzenin sözlərinə görə, onlar una idxal vergilərinin götürülməsini tələb edirlər.

Dolidzenin "Mtavari" Media Mərkəzində keçirilən mətbuat konfransında qeyd etdiyi kimi, bu, onlara çörəyin qiymətinin artmasının qarşısını almağa imkan verəcək.

"Biz una müvəqqəti verginin dayandırılmasını və çörək istehsalçılarına çörəyin qiymətini saxlamağa imkan verilməsini tələb edirik. Nəticədə çörəyin qiyməti artmayacaq. Bu, bizə unu əldə etməyə imkan verəcək ki, bu da bizə qiyməti saxlamağa imkan verəcək", - deyə Dolidze bildirib.

Onun sözlərinə görə, indiyədək unun bahalaşmasına baxmayaraq, mağazalarda çörəyin qiyməti dəyişməyib.

"Biz bunu davam etdirməyə çalışırıq. Biz gözləmə rejimindəyik. Ola bilsin ki, yeni rəhbərliyi olan nazirliklə əlaqə yaransın və bəlkə də, nəticə çıxaraq, çünki burada həm buğda fermerlərinin, həm un istehsalçılarının, həm də çörəkçilərin maraqları var", - deyə Dolidze bildirib.

Onun izah etdiyi kimi, vergi qaldırılmasa, çörəyin qiyməti 10-15 tetri arta bilər.

"Söhbət 10-15 tetridən gedir. Əgər biz bunu qonşu ölkələr və onların məhsulları ilə müqayisə etsək, biz hələ də çörək bişirmək üçün sabitliyi qoruyub saxlayırıq", - deyə Dolidze bildirib.

Onun sözlərinə görə, birinci keyfiyyətli 50 kq unun qiyməti 52 lari olmalı idi, lakin bu gün 53 və 54 laridir.

"İlin sonunda unun qiymətində artım olub. Bir növ razılaşmamız var idi ki, qiymət saxlanılacaq və bir kisə 1-ci növ unun qiyməti 52 lari olacaq, amma gördüyümüz kimi, unun qiyməti hesablamalarımızın əsaslandığı həddi aşdı. Unla yanaşı, müasir çörək istehsalçılarının üzləşdiyi problemlər də var. Paylanma məsələləri mürəkkəb olduğu üçün bu bizi bir az narahat etdi. İnsanların sıx olduğu şəhərdə distribüterlərin işi çox çətin idi. Şikayətləri yüksək cərimələrə görə fabriklərə iqtisadi zərbə vurulması idi. Bundan əlavə, çətinliklər 3 növbəli iş və isti mühitlə bağlı əmək haqqı ilə əlaqədardır. Dolidze deyib: "Biz bəzi tədbirlər görməli olduq, çünki bu insanlar maaşların artırılmasını tələb edirlər".

რეზონანსი

## "REZONANS"

*9 yanvar 2025-ci il*

### GÜRCÜSTANDA İNDİYƏDƏK 1 870 657 AVTOMOBİL QEYDİYYATDAN KEÇİB

***Son məlumatlara görə, Gürcüstanda qeydiyyatdan keçmiş avtomobillərin sayı 1 870 657- dir. Bu haqda Xidmətlər Agentliyinin rəsmi statistikasında qeyd olunub.***

Eyni məlumatlara görə, Gürcüstanda 1 656 259 vətəndaş sürücülük vəsiqəsi alıb.

Son statistik göstəricilərə görə, ölkədə ən çox Mersedses – Benz, Toyota və Ford markalı maşınlar hərəkət edir.

Bundan əlavə, avtomobillərin əksəriyyəti boz rənglidir, ikinci sırada ağ rəng, üçüncü yerdə isə qaradır (ardından göy, qırmızı və yaşıl rənglər gəlir).

Eləcə də, avtomobillərin 41.2 faizi benzinlə, 19.8 faizi dizellə, 9.7 faizi benzin və qazla işləyir; 8.7 faizi hibriddir.

SAĞLAMLIĞIMIZI QORUYAQ

### ÇÖRƏK, PORTAĞAL, PENDİR VƏ ACI BİBƏR İSTƏNİLMƏSİ ORQANİZM TƏRƏFİNDƏN NƏYİ XƏBƏR VERİR? SİQNALLARI DÜZGÜN AYIRD EDƏK

*(Əvvəli ötən sayımızda)*

**Duzlu yeməklər istəyi: susuzlaşma**

Başqa bir banka turşu açmaq və ya sevimli yeməyinizə səxavətlə duz əlavə etmək istəyi yalnız hamiləliyi göstərə bilməz. Bədəndə kifayət qədər natrium və maqnezium duzlarının (xloridlərin) olmaması mümkündür, məsələn, artan fiziki fəaliyyət, susuzlaşdırma və ya duzsuz pəhrizlər.

Gərgin məşq zamanı içmə rejimini qoruyun və kalori qəbulunu artırın.

Bir dilim qara çörək, pendir və ya dəniz məhsulları duzlu bir şey yemək istəyini cilovlamağa kömək edəcək.

**Acı yemək istəyi: "tənbəl" mədə və ya tiroid problemləri**

Pəhrizdə bol acı bibər tez-tez yüksək xolesterol və lipid mübadiləsi pozğunluqlarını, mədə şirəsinin qeyri-kafi istehsalını ("tənbəl mədə sindromu" və ya dispepsiya) və ya tiroid bezinin hormonal xəstəliklərini göstərir. Acılı, daha dəqiq desək, bibərdə olan kapsaisin maddəsi maddələr mübadiləsini və mədə hərəkətliliyini yaxşılaşdırmağa və qan özlülüyünü azaltmağa kömək edir, qan damarlarında xolesterin lövhələrinin əmələ gəlməsi ehtimalını azaldır.

Bununla belə, bibərə çox aludə olmamalısınız, çünki bu, mədə-bağırsaq traktının iltihabi xəstəliklərinin inkişafına təkan verə bilər.

**Pendir və süd istəyi: kalsium və fosfor çatışmazlığı**

Süd məhsullarına keçid ən çox kalsium çatışmazlığı ilə izah olunur və laktoza qarşı dözümsüzlük olmadığı təqdirdə bədənə mənfi təsir göstərmir.

Pendir yemək istəyi bəzən fosfor, maqnezium, vitamin B12, həmçinin duzun olmaması ilə əlaqələndirilir (məsələn, Parmesan, turşu pendirlər və ya saçaqlı pendir istəyirsinizsə).



Unutmayın ki, pendir təkcə faydalı deyil, həm də yüksək kalorili məhsuldur! Buna görə də, pendir pəhrizini balıq, paxlakimilər, yumurta, kətan yağı və banan ilə birlikdə işlətmək daha yaxşıdır.

**Qızardılmış yemək istəyi: enerji çatışmazlığı**

Çox vaxt qızardılmış kartofdan bir qab yemək istəyi yağ və qeyri-kafi kalorili qəbul ehtiyacını gizlədir. Avokado, yağ və ya bitki yağı, qoz-fındıq və yağlı balıq əlavə edərək adi menyunu nəzərdən keçirməyə dəyər.

**Qırmızı ət istəyi: dəmir və sink çatışmazlığı**

Qırmızı ətə ehtiyac sink və dəmir çatışmazlığı, aşağı hemoqlobin səviyyəsi və anemiyanın inkişafı. Bütün bunlar zəiflik, yorğunluq, başgicəllənmə və tez-tez soyuqdəymə ilə müşayiət olunur.

Hemoqlobin səviyyəsini artırmaq üçün ətdən əlavə, qarabaşaq yarması, malın qaraciyəri, alma, xurma, yumurta sarısı yemək lazımdır. Molyuskalar, badam və tünd şokolad da sinklə zəngindir.

**Qəribə yemək istəklərinin digər səbəbləri**

Müəyyən bir məhsulu yemək istəyi həmişə bədənin fizioloji ehtiyacları ilə əlaqəli deyil. Psixoloji amillər də təsir edə bilər. Məsələn, uşaqlıqdan xatirələr: anam şokoladın pis əhval-ruhiyyədə kömək etdiyini söylədi. Davranış stereotipləri: televizor qarşısında qəlyanaltı yemək və ya müdaxilə edən reklam: bir reklam şüarında "dadlı" və "ədviyyatlı" və ya "şirin" sözlərinin birləşməsidir.

Adi pəhrizdəki balanssızlığın daha da prozaik səbəbləri düzgün yemək üçün vaxt olmadıqda həyatın ritmində dəyişiklik və ya qeyri-adi mətbəxi olan başqa bir ölkəyə köçmək və s.

Müəyyən bir məhsulu hansı səbəbə görə aldığınızı düşünün. Bu, özünüzü dadlı bir yeməklə mükafatlandırmaq, mədənizi doldurmaq, və ya emosional boşluğu doldurmaq üçündürmü yoxsa başqa bir şeydirmi? Vücudunuzun siqnallarına diqqətli olun: qidalanma vərdişlərində dəyişikliklərə əlavə olaraq, ürəkbulanma, zəiflik və digər əlamətlər əlavə olunarsa, həkimə müraciət edin.

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**17 yanvar**

•1945—Varşavanın azad edilməsi - Sovet qüvvələri demək olar ki, tamamilə dağıdılmış Varşavanı nasistlərdən azad edib.

•1946—BMT Təhlükəsizlik Şurasının ilk iclası keçirilib.

•1961—Konqonun keçmiş baş naziri Patris Lumumba, Belçika və ABŞ hökumətlərinin dəstəyi və iştirakı ilə qətlə yetirilmişdir.

•2023—Manana Doicaşvili, gürcü pianoçu, Gürcüstanın xalq artisti, vəfat edib.

**18 yanvar**

•1213 — Böyük Tamara, Gürcüstan kraliçası, vəfat edib.

•1778—Ceyms Kuk Havay (Sakit okean) adalarını kəşf etdi və onları "Sendviç adaları" adlandırıb.

**•1871—Alman İmperiyası yaradılıb.**

•1871— I Vilhelm ilk Alman imperatoru olub.

•1904—Nadejda Tsomaia, gürcü opera müğənnisi, anadan olub.

•1919 — Birinci Dünya müharibəsini nəticələndirən Paris Sülh Konfransı Fransanın Versal şəhərində başlamışdır.

**19 yanvar**

•1795—Hollandiyada yeddi Birləşmiş Respublikanın mövcudluğuna son qoyan Bataviya Respublikası qurulub.

•1923— Gürcüstanda professor Eliava adına Peyvəndlər və Serumlar Elmi-Tədqiqat İnstitutu yaradılmışdır.

•1948—Metallurgiya şəhəri Rustavinin tikintisinə başlanılıb.

•1990 — Qara Yanvar: 19-dan 20-nə keçən gecə, saat 23:30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri tərəfindən fövqəladə vəziyyət elan edilmədən yeridilmiş və dinc əhaliyə divan tutulmuşdur.

**20 yanvar**

•1265— İlk İngilis Parlamentinin birinci iclası Londonda, Vestminster sarayında keçirilib.

•1841— Britaniya Honq Konq adasını ələ keçirib.

•1853 — Britaniyalı fotoqraf Rocer Fenton tərəfindən Kral Fotoqrafiya Cəmiyyətinin əsası qoyulmuşdur.

**•Azərbaycan — Ümumxalq hüzn günü**

•Laos — Ordu Günü

•Mali — Silahlı Qüvvələr Günü

**21 yanvar**

•1732 — Səfəvilər dövləti ilə Rusiya arasında Rəşt müqaviləsi imzalanmışdır.

•1793— Rusiya və Prussiya Polşanı parçalayıb.

•1871— Mose Toidze , gürcü rəssamı anadan olub.

•1911 — İlk Monte Karlo Rallisi keçirilib (formula 1 Monako yarışını və Monako Kart Kubokunu da təşkil edən Monaco Automobile Club tərəfindən təşkil edilən illik bir rallidir)

•1924— Vladimir İliç Lenin vəfat edib.

•Polşa — Nənələr Günü

**22 yanvar**

•1517 — I Səlimin idarə etdiyi Osmanlı İmperiyası Məmlük dövlətini məğlub edərək, Ridaniyə döyüşündə indiki Misiri ələ keçirib.

•1771— İspaniya Folklend adalarındakı Port Eqmont ərazisini İngiltərəyə verib.

•1903—ABŞ və Kolumbiya Panama kanalının tikintisinə dair müqavilə imzalayıblar.

•1905— Sankt-Peterburqda 1905-ci il inqilabı Qanlı Həftə ilə başlayıb.

**•1942— İakob Papiaşvili, gürcü yazıçı, tədqiqatçı və publisist, anadan olub.**

**23 yanvar**

•1556 — Tarixin ən fəlakətli zəlzələsi Çində 830,000 nəfərin həlak olduğu Şensi zəlzələsi baş verib.

•1571 — Londonda London Kral Birjası açılıb.

•1950 — Knesset Qüdsün İsrailin paytaxtı olduğuna qərar verib.

•1873 — Varlam Burcanadze, gürcü müəllim və ictimai xadim, anadan olub.

•1958 — Zaur Svanadze, gürcü futbolçu və baş məşqçi, anadan olub.

•1973 — ABŞ prezidenti Nikson Vyetnamda sülh razılaşmasının əldə olunduğunu elan edib.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## AZƏRBAYCANIN ÜMUMXALQ HÜZN GÜNÜ

***Azərbaycanın Ümumxalq Hüzn Günü, 1990-cı ilin 20 yanvarında Bakıda baş vermiş qanlı hadisələrə və həmin günlərdəki faciələrə həsr olunmuş bir gündür.*** Bu, Azərbaycanın müstəqillik uğrunda mübarizəsində, eyni zamanda Sovet İttifaqının son dövrlərində baş verən ən dəhşətli və dramatik hadisələrdən biridir. 20 yanvar 1990-cı il Sovet İttifaqı rəhbərliyinin Azərbaycanda baş verən siyasi hərəkatların və müstəqillik tələblərinin qarşısını almaq məqsədilə həyata keçirdiyi hərbi müdaxilə ilə əlaqələndirilir. O dövrdə Sovet rejimi Azərbaycanda baş qaldıran etirazları və müstəqillik istəyini, xüsusilə müxalifət qüvvələrinin təşkil etdiyi mitinqləri qəddarcasına repressiya etməyə qərar verdi. Bakı şəhərində başlayan genişmiqyaslı hərbi əməliyyatlar, dövrün siyasi atmosferinə böyük təsir göstərdi. Sovet ordusunun Bakıya daxil olması və şəhərin mərkəzində, xüsusilə Neftçilər prospektində, hərbi qüvvələrin atəş açması nəticəsində yüzlərlə Azərbaycan vətəndaşı həlak oldu, çoxsaylı insanlar yaralandı. Həmin günlərdə baş verən qətllər və repressiyalar, Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin ən qanlı səhifələrindən biri kimi tarixə düşdü.



20 yanvar hadisələri, həmçinin Sovet İttifaqının süqutunun başlanğıcı oldu və bu faciə xalqın müstəqillik istəyini daha da gücləndirdi.

Hər il 20 yanvar günü Azərbaycanda, xüsusilə Bakıda, genişmiqyaslı anma mərasimləri keçirilir. Bu günlə əlaqədar olaraq Azərbaycanın müxtəlif şəhərlərində və kəndlərində şəhidləri anmaq üçün məzarlar ziyarət edilir, mərasimlər təşkil olunur. Bakıdakı Şəhidlər Xiyabanı, 20 yanvar hadisələrinin ən mühüm xatirə yerlərindən biridir. Burada yüzlərlə şəhidin məzarı yerləşir və hər il bu məzarlıqda şəhidlərə ehtiram göstərilir.

Ümumxalq Hüzn Günü, Azərbaycanın siyasi müstəqillik tarixində mühüm bir yer tutur. 20 yanvar hadisələri xalqın müstəqilliyinə olan arzusunu və buna çatmaq üçün qarşısına çıxan çətinlikləri əks etdirir. Bu faciə, həmçinin Azərbaycanın müstəqil bir dövlət kimi formalaşması yolunda bir simvol kimi qalır. Ümumxalq Hüzn Günü, həm də Azərbaycanın öz tarixini, mədəniyyətini və müstəqillik əzmini yad etməsi üçün əhəmiyyətli bir vaxtdır. Bu günün hər il anılması, gələcək nəsillərə Azərbaycanın keçmişini tanıdan və milli birliyi gücləndirən bir ənənəyə çevrilmişdir. Hər il bu günün anılması, Azərbaycanın milli birliyini və müstəqil dövlət olaraq möhkəmlənməsini gücləndirən bir tədbirdir.

***Foto E.Şahvələdin arxivindəndir.***

## İAKOB PAPİAŞVİLİ

***İakob Papiaşvili XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşamış Gürcü yazıçı, tədqiqatçı və publisistdir.*** O, Gürcüstanın sosial və mədəni inkişafına təsir göstərmiş mühüm şəxsiyyətlərdən biri kimi tanınır. Papiaşvili, həm ədəbiyyat sahəsindəki uğurları, həm də cəmiyyətin mühüm məsələlərinə dair yazıları ilə məşhurdur. Onun yazıçı kimi fəaliyyəti, xalqın təhsili, mədəniyyəti və sosial məsələləri ilə bağlı geniş spektri əhatə edib.



İakob Papiaşvili 1863-cü ildə Gürcüstanın Cavaxeti bölgəsindəki kənddə anadan olub. O, təhsilini Tbilisidə almış, daha sonra müxtəlif tədqiqatlar və yazıçılıq fəaliyyəti ilə məşğul olmuşdur. Gənclik illərindən etibarən cəmiyyətin problemlərinə maraq göstərmiş, ədəbiyyatla yanaşı, sosial məsələlər və təhsil sahəsində də aktiv işlər görmüşdür.

İakob Papiaşvili öz dövründə yalnız yazıçı deyil, həm də tədqiqatçı və publisist kimi fəaliyyət göstərmişdir. O, gürcü xalqının tarixini, mədəniyyətini və sosial vəziyyətini dərindən öyrənmiş və bu mövzularda əsərlər yazmışdır. Yakob Papiaşvili, gürcü mətbuatında da fəal şəkildə iştirak edib. O, dövrünün müxtəlif siyasi və sosial məsələlərinə dair məqalələr yazmış və xalqın maariflənməsi üçün əlindən gələni etmişdir. Onun publisistik əsərləri sosial ədalət, xalq təhsili və mədəni inkişaf mövzularını əhatə edirdi. Əsərlərində, xüsusilə Gürcüstanın müstəqillik yolu, xalqın təhsil səviyyəsinin yüksəldilməsi və mədəniyyətin qorunması məsələlərinə xüsusi diqqət yetirilirdi.

Papiaşvili, həmçinin müstəqil bir tədqiqatçı kimi tanınır. O, Gürcüstanın qədim tarixini və mədəniyyətini araşdıraraq, xalqa məxsus bir çox əhəmiyyətli sənət əsərləri və yazılı mənbələri qorumağa çalışmışdır. O, əslində yalnız yazıçı kimi deyil, həm də sosial məsələlərə dair dərin fikirlər irəli sürən bir publisist və tədqiqatçı idi. Onun əsərləri, həm dövrün ədəbiyyatının inkişafında mühüm rol oynamış, həm də sosial və mədəni məsələlərin təhlilinə yeni bir baxış ortaya qoymuşdur.

## ALMANİYA

***Almaniya, rəsmi adı ilə Almaniya Federativ Respublikası, Mərkəzi Avropada yerləşən güclü iqtisadiyyata və zəngin mədəni irsə malik bir dövlətdir.*** Şimaldan Baltik və Şimal dənizləri ilə əhatələnən Almaniya, cənubda Alp dağları, Boden gölü və Yuxarı Reynlə əhatə olunmuşdur. Ölkə şimaldan Danimarka, şərqdən Polşa və Çex Respublikası, cənubdan Avstriya və İsveçrə, cənub-qərbdən Fransa, qərbdən Lüksemburq, Belçika və Niderlandla həmsərhəddir. Əhalisi təxminən 83 milyondur. Almaniya həm də ABŞ-dən sonra dünyada ikinci ən çox mühacirət edilən ölkədir. Ərazisi 357,022 kvadrat kilometr olmaqla, ölkə coğrafi və iqlim baxımından rəngarəngdir. Mülayim kontinental iqlimi qışın yumşaq, yayın isə sərin keçməsinə səbəb olur.



Berlin paytaxt olmaqla yanaşı, həm də ölkənin siyasi, mədəni və iqtisadi mərkəzlərindən biridir. Hamburq, Münhen və Frankfurt kimi şəhərlər isə ticarət, sənaye və maliyyə baxımından böyük əhəmiyyət daşıyır. 16 federal əyalətdən ibarət olan Almaniya parlamentli federativ respublika sistemi ilə idarə olunur. Prezident dövlətin başçısı olsa da, əsas icraedici səlahiyyətlər kanslerə məxsusdur.

Orta əsr Almaniyası Müqəddəs Roma İmperiyası kimi də tanınır. 800-cü ildə Franklar imperiyasının lideri Karl Papa tərəfindən Roma imperatoru elan olundu və Müqəddəs Roma İmperiyasının əsası qoyuldu. Bu imperiya Alman torpaqlarında əsas siyasi qüvvə olaraq qaldı və müxtəlif knyazlıqlar, hersoqluqlar arasında siyasi parçalanma şəraitində mövcud oldu. Reformasiya dövründə (16-cı əsr) Martin Lüterin təlimləri Almaniyada dini və siyasi dəyişikliklərə səbəb oldu. Katolik kilsəsinə qarşı baş qaldıran Lüter protestant hərəkatını başlatdı. 19-cu əsrdə Avropa siyasi xəritəsi yenidən şəkillənməyə başladı. Napoleon müharibələrindən sonra Alman torpaqları yenidən təşkil edildi.

1871-ci ildə Otto fon Bismarkın rəhbərliyi altında bir çox alman dövlətinin (İsveçrə və Avstriya istisna olmaqla) birləşməsi ilə Prussiya rəhbərliyində Almaniya İmperiyası yaradılmışdır. Adolf Hitler 1933-cü ildə Almaniya kansleri oldu və 1934-cü ildən etibarən tam hakimiyyət əldə edərək nasist rejimi qurdu. Onun rəhbərliyi altında Almaniya totalitar dövlətə çevrildi, siyasi müxalifət, azlıqlar və xüsusilə yəhudilər ciddi şəkildə təqib olundu. 1939-cu ildə Polşaya hücumu ilə ikinci dünya müharibəsinin başlanmasına səbəb olan Almaniya müharibənin sonlarına yaxın məğlub oldu. 1945-ci ildə Berlin mühasirəyə alındı və Hitler intihar etdi. Onun hakimiyyəti nəticəsində Almaniya böyük dağıntılara məruz qaldı və dünya tarixində ən dəhşətli diktatorlardan biri olaraq qalır.

1949-cu ildə ölkə iki dövlətə – Qərbi Almaniya və Şərqi Almaniyaya bölündü. Lakin 1990-cı ildə Berlin divarının yıxılması ilə Almaniya yenidən birləşdi və müasir dövrdə Avropanın lider dövlətlərindən birinə çevrildi.

Bu gün suveren dövlət olan Almaniya güclü iqtisadiyyata sahib olan dünya ölkələri arasında nominal ÜDM göstəricilərinə görə dördüncü, alıcılıq qabiliyyəti pariteti göstəricisinə görə isə beşinci yerdədir. Bəzi sənaye və texnoloji sektorlarda qlobal lider olan Almaniya dünya üzrə malların həm ixracına, həm də idxalına görə üçüncüdür. İnkişaf etmiş ölkə kimi yüksək həyat standartlarına, sosial təhlükəsizlik və universal səhiyyə sisteminə, təbiətin mühafizəsi və pulsuz ali təhsil sisteminə sahibdir.

İqtisadi baxımdan Almaniya dünya səhnəsində mühüm mövqe tutur. Avropanın ən böyük iqtisadiyyatına malik olan bu ölkə avtomobil istehsalı, kimya sənayesi, texnologiya və maşınqayırma sahələrində liderdir. Volkswagen, BMW, Mercedes-Benz və Siemens kimi nəhəng şirkətlər Almaniyanın qlobal bazarda nüfuzunu gücləndirir. Almaniyanın mədəni irsi də eyni dərəcədə zəngindir. İmmanuel Kant, Hegel və Nitsşe kimi fəlsəfə nəhəngləri, Bethoven, Sebastyan Bax və Yohans Brams kimi musiqiçilər dünya mədəniyyətinə böyük töhfələr vermişdir. Müasir dövrdə də Almaniya musiqi, kino və incəsənət sahələrində fəal mövqedədir. Oktoberfest kimi festivallar, Milad bazarları və müxtəlif karnavallar alman mədəniyyətini əks etdirən ənənələrdəndir.



Təhsil və sosial təminat sahələrində Almaniya dünyanın qabaqcıl ölkələrindən biri sayılır. Universitetləri xüsusilə mühəndislik və texnologiya sahələrində yüksək səviyyəli təhsil təqdim edir. Sosial təminat sistemi, səhiyyə və təhsil sahəsində geniş dövlət dəstəyi cəmiyyətin rifah səviyyəsini artıran əsas amillərdən biridir.

Turizm baxımından da Almaniya maraqlı ölkələr sırasındadır. Berlin divarı, Köln Katedrali və Noyşvanştayn Qəsri (Qu quşu daşı qəsri) kimi tarixi və mədəni abidələr turistlər tərəfindən tez-tez ziyarət olunur. Təbiətsevərlər isə Alp dağları və Qara Meşə bölgəsində gözəl mənzərələrdən zövq alırlar.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

" ს ა ქ ა რ თ ვ ე ლ ო "
" S A K A R T V E L O "

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




## XVİÇA KVARATSXELİA YENİ KLUBUNA QOVUŞDU



***Gürcüstanlı yarımmüdafiəçi Xviça Kvaratsxelia İtaliyanın "Napoli" klubundan Fransanın "Paris Sen-Jermen" klubuna keçib.***

Bu barədə jurnalist Fabritsio Romano özünün "X" səhifəsində yazır.

Müqavilə beş il müddətinə bağlanacaq. Transfer məbləği təxminən 70 milyon avrodur.

Qeyd edək ki, 23 yaşlı Kvaratsxelia 2022-ci ildən "Napoli"də çıxış edirdi.

## MARNEULİDƏN OLAN GƏNC FUTBOLÇU İTALİYANIN İNTERFUTBOL AKADEMİYASI İLƏ MÜQAVİLƏ BAĞLAYIB



***Marneuli Gənclik Futbol klubnun yetirməsi Zaur Vəliyev İtaliyanın İnterfutbol akademiyasının Tbilisi filialına seçim yolu ilə qəbul olub.*** Bu barədə klubun başməşqçisi Əhməd İsmayılov məlumat verib. Məlumata əsasən, klub və gənc futbolçu arasında 25.08.2024-cü ildən, 26.06.2026-cı ilə qədər müqavilə imzalanıb. Qeyd edək ki, 2008-ci il təvəllüdlü Zaur Vəliyev bir il ərzində 17 yaşadək "Gürcüstan Qızıl Ligası" ilə 28 oyunda meydana çıxıb, yeddi qol vurub və 4 məhsuldar ötürmə edib.

## BU ÖLKƏDƏ KİŞİLƏR 10, QADINLAR İSƏ 7 İL ƏSGƏRLİYƏ GEDİR

Məcburi hərbi xidmət bir çox ölkədə dövlətin təhlükəsizliyini təmin etmək və müdafiə qabiliyyətini artırmaq məqsədilə tətbiq olunan bir sistemdir. Hər ölkənin müdafiə strategiyası, coğrafi mövqeyi və siyasi vəziyyəti nəzərə alınaraq bu xidmətin müddəti, şərtləri və tətbiqi fərqlənir.

Məcburi hərbi xidmətin həyata keçirildiyi bəzi ölkələr və bu xidmətin necə işləndiyi barədə qısa məlumatları sizə təqdim edirik:

**Danimarka:** Danimarkada kişi vətəndaşlar üçün məcburi hərbi xidmət 4 ay davam edir. Qadınlar isə yalnız könüllü olaraq hərbi xidmətə cəlb edilə bilərlər.

**Türkiyə:** Türkiyədə 20 yaşına çatmış kişilər üçün məcburi hərbi xidmətin müddəti 6-12 ay arasında dəyişir. Hərbi xidmətin müddəti xidmət olunan vəzifə və hərbi hissənin ehtiyaclarından asılıdır.

**İsveç:** İsveçdə 18-47 yaş arasındakı kişilər və qadınlar 7,5 aydan 15 aya qədər müxtəlif hərbi sahələrdə xidmət edir. Lakin yalnız bir neçə nəfər qeydiyyatdan keçənlərdən xidmət üçün seçilir.

**Finlandiya:** Finlandiyada 18 yaşına çatmış kişilər üçün məcburi hərbi xidmətin müddəti 6-12 ay arasında dəyişir. Mülki xidmət seçimi də mövcuddur və bu, hərbi təlimə üstünlük verməyən şəxslərə təklif olunur.

**Rusiya:** Rusiyada hərbi xidmət 18-27 yaş arasındakı kişilərə 12 ay müddətində tətbiq olunur. Qadınlar isə yalnız könüllü olaraq hərbi xidmətə gedə bilərlər.

**Ukrayna:** Ukraynada məcburi hərbi xidmət 18-27 yaş arasındakı kişilərə şamil edilir və xidmət müddəti 12 aydır.

**Suriya:** Suriyada 18 yaşına çatmış bütün kişilərə məcburi hərbi xidmət tətbiq edilir və xidmət müddəti ümumiyyətlə 18 aydır. Lakin, vətəndaş müharibəsi şəraiti ilə əlaqədar xidmət daha çətin və təhlükəli hala gəlib.

**Şimali Koreya:** Şimali Koreyada məcburi hərbi xidmət çox uzun müddət davam edir. Kişilər üçün bu müddət 10 ildən 13 ilə qədər uzana bilər, qadınlar üçün isə 7 ildən başlayır və s.

## "OSKAR"IN TƏQDİM OLUNMA VAXTI DƏYİŞİLDİ



*"Oskar"la mükafatlandırma mərasiminin vaxtı dəyişdirilib.*

Mərasim təxirə salınıb. Buna səbəb Los-Ancelesdə baş verən dəhşətli yangınlar olub.

Bildirilib ki, qaliblər yanvarın 17-i yox, 19-da açıqlanacaq. Həmçinin səsvermə müddəti də iki həftə uzadılacaq.

## BAŞSAĞLIĞI

Marneuli rayonunun Qullar ictimai məktəbinin direktoru Hümbət Hüseynov və məktəbin pedaqoji kollektivi həmin məktəbin müəllimi Fatma Nəcəbovaya anası

**Güllü Məhəmməd qızının**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

**Allah rəhmət eləsin!**

## SOYUQ GÜNDƏ İSTİLƏŞƏN ÜMİDLƏR



Foto E.Şahvələdindir.

MARAQLIDIR

## NİYƏ BİR AYAQ DİGƏRİNDƏN DAHA BÖYÜKDÜR?

***ABŞ-nin "New York Foot and Ankle" tibb təşkilatından olan alimlər əksər insanların ayaqlarının müxtəlif ölçüdə olmasının səbəblərini açıqlayıblar.***

Bu barədə "Live ScienÜce" portalı məlumat yayıb.

Daha əvvəl ABŞ, Böyük Britaniya və Çində həyata keçirilən araşdırmalar göstərib ki, insanların 24%-ə qədərində sol və sağ ayaqları arasında ən azı 4 millimetr ölçü fərqi var.

Eyni zamanda, 2018-ci ildə Britaniyada aparılan araşdırmanın məlumatları göstərib ki, qadınların 50.7%-nin və kişilərin 54.8%-nin sağ ayağı soldan daha uzundur.

Digər amillər də ayaq ölçüsü fərqinə təsir göstərir. Məsələn, qadınlar hamiləlik zamanı və ya sonrasında ayaqların bir qədər genişlənməsi ilə qarşılaşa bilərlər.

Qeyd olunur ki, xüsusilə sümüklərin inkişaf etdiyi uşaqlıq dövründə alınan zədələr ayağın ölçüsünü dəyişə bilər. Ayağın uzun müddət gipsdə saxlanılması da əzələlərin zəifləməsinə və kiçilməsinə səbəb ola bilər.

Alimlər əlavə ediblər ki, sol və sağ ayaqların ölçülərində ciddi fərq bəzi hallarda cərrahi müdaxilə tələb edə bilər. Ancaq insanların əksəriyyəti ortopedik və korrektəedici ayaqqabılarla narahatlığın öhdəsindən gələ bilir.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**


Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı: Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə. E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444 Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.